

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 21 (24.403)

1 iyun 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

## Ulu Öndər Heydər ƏLİYEV:

*“Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır.”*

Səhifə ⇨ 8-9





# Xocalı bundan sonra yaddaşımıza belə yazılacaq

***Təsəvvür elə, doğulub böyüdüyün, uşaqlıq və ya gənclik illərinin ən əziz xatirələrinin yaşandığı torpaqdan min bir zillət və acılarla çıxmağa məcbur olursan – o da əgər sağ qalmaq qismətində varsa – və… illər sonra Prezidentin sənin əlindən tutaraq yaşadığın məhəlləyə gətirir və güvənlə artıq öz doğma evində rahat yaşaya bilərsən deyir. Tam səmimi deyirəm: dünyada bunun bənzəri bir şey olmayıb. Olsa-olsa bu hər hansı bir ədəbiyyat insanının yaradıcılığında bədii təxəyyülün ssenari xətti ola bilər. Amma bu dəfə Xocalıda yaşananlar yaradıcı ssenarinin məhsulu yox, əsl Azərbaycan həqiqəti idi: xocalılılar Xocalıya qayıdırdılar…***

İllərdir, öz doğma yurd-yuvalarından didərgin düşmüş insanların azad olunmuş torpaqlara qayıdışı, təbii ki, ayrı hissdir. Biz bunu Cəbrayılın, Füzulinin, Şuşanın, Laçının, Zəngilanın timsalında görmüşük. Amma gəlin etiraf edək ki, Xocalıya qayıdış hər bir azərbaycanlı üçün tamam fərqli hissdir. Xocalını fərqli edən isə onun ən yeni tariximizdə yaşadıqlarıdır.

Aydın məsələdir ki, bəşəriyyət var olandan müharibələr olub və yenə də olacaq. Tarixboyu bu müharibələrdə saysız-hesabsız insanlar həlak olub. Amma 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda yaşananlar bəşər tarixinin ən dəhşətli soyqırımlarından biri kimi tarixə yazılıb. XX əsrin ən ağır insanlıq faciəsinin yaşanıldığı bu şəhərdə sakinlər öldürülməklə deyil, vəhşiliklə, ağlagəlməz üsullarla öldürülməklə sınağa çəkilmişdi. Həmin dəhşətli hadisələrin yaşandığı gecədə Xocalı özünün mərd oğulları sayəsində sonadək qorunmağa çalışmışdı. Elə buna görədir ki, təkcə Xocalının müdafiəsinə görə 10 nəfər (9-u ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. 613 nəfərin öldürüldüyü, 1275 nəfərin əsir götürüldüyü şəhər sonda işğal olunub. Və bütün bu hadisələr nəticəsində Azərbaycan insanının yaddaşında “Xocalı” sözü “faciə”, “kədər” sözlərinin sinonimi kimi assimilyasiya olunmuşdu. Ta ki 44 günlük Vətən müharibəsində ordumuz döyüş meydanında Xocalının qisasını alana qədər. Və bu da təsadüfi deyildi ki, Ali Baş Komandan cənab İlham Əliyev həm müharibənin gedişində, həm də ondan sonrakı çıxışlarında Xocalı faciəsini törədənlərin dovşan kimi döyüş meydanından qaçdıqlarını bildirir, onları hər addımda alçaldırdı. Antiterror əməliyyatından sonra Qarabağdan qaçmaq istəyən quldurların tutularaq Bakıya gətirilməsi isə hələ ki, İrəvanda olan bir neçə qatilin rahat yaşamaq imkanlarını əlindən alıb. Çünki onlar gözəl bilirlər ki, günlərin birində cənab İlham Əliyevin tapşırığı ilə Bakıdakı istintaq təcridxanalarında “çay içə” bilərlər.

Azərbaycan Prezidenti Xocalı sakinləri ilə görüşündə bildirdi ki, xocalılılar indiyədək müstəqillik illərini Xocalıdan ayrı keçirməli olublar. İllərlə çətin şəraitdə tələbə yataqxanalarında, uşaq bağçalarında, qohumlarının evlərində yaşamalı olublar. Bu gün isə artıq Xocalıya – öz doğma el-obalarına qayıdırlar. Azərbaycan Prezidenti sakinlərlə görüşündə artıq bundan sonra bu torpaqlarda rahat və güvəndə yaşayacaqlarını bildirdi. Qeyd etdi ki, bundan sonra Qarabağ və Şərqi Zəngəzur çox möhkəm bir istehkam zonası olacaq və Azərbaycan xalqı əbədi əmin olsun ki, bir daha bu faciələr başımıza gəlməyəcək. Prezident cəmi 8 aya bərpa edilmiş Xocalıdakı bu görüşün məhz Müstəqillik Günündə baş tutmasının da xüsusi məna daşıdığını qeyd etdi və bildirdi ki, üç ay bundan əvvəl – fevralın 26-da, hər birimiz üçün faciəli gündə Xocalıda Memorial Kompleksin təməlini qoyduq. Bu gün isə artıq xocalılılar qayıdır və şəhər də göz oxşayır.

Bəli, 28 May – Müstəqillik Günündə Xocalıya 20 ailənin qayıdışı bundan sonra bütün xocalılılar üçün məxsusi gün olaraq xatırlanacaq. Xankəndiyə, Ağdama, Şuşaya yaxınlığı ilə seçilən Xocalı həm də strateji imkanlara sahib rayondur. Xocalının tərəqqisi, hərtərəfli inkişafı, çox yaxında nəqliyyat qovşağına çevrilməsi isə həm də yaddaşımıza Qarabağın logistik mərkəzi kimi yazılacaq.

**Səbuhi HƏSƏNOV**


İnam, səmimiyyət, qalibiyyət... 2
Azərbaycanda ilk dəfə olaraq Naxçıvanda regional sığorta forumu keçirilib 5
Azərbaycan dövləti vətəndaşını məhkumluğa alışdırmır, islaha sövq edir 8
Hamı sənə bənzəyir, sən kimə bənzəyirsən? 10
Vənənd Ordubadın incisi 11
Günəşdən əvvəl oyananlar 12



# İnam, səmimiyyət, qalibiyyət...

İnsana xas olan ən gözəl, nəcib sifətlərdən biri də boyasız səmimiyyətdir. Səmimi hisslər, səmimi ünsiyyətlər, səmimi insanlar olmasaydı, yəqin ki, dünya məhvərindən qopardı. Axı dünya səmimiyyətdən yaranan sevgi üzərində qurulub. İnsanın ən ali keyfiyyətlərindən biri, bəlkə də, birincisidir, səmimiyyət... Səmimiyyət qəlbin aynasıdır, o, ilk növbədə, özünü insanın mənəvi dünyasına nüfuz edən nur timsalında göstərir. İnsana xas bu keyfiyyət mənəviyyatın kompasıdır, o yolla gedənlərin həyatı gözəlliklərlə süslənir. Səmimiyyət əxlaqdır, onu duymaq, hiss etmək çətin deyil. Onun daşıyıcısı tutduğu mövqedən asılı olmayaraq, istinad yeri, nümunə olur. Səmimiyyət mehribanlıqdır, ülfətdir. O, olan yerdə rahatlıq, firavanlıq var. Səmimiyyət mədəniyyətdir, O, insanlara yüksək zövq, həssaslıq aşılayır. Səmimiyyət nəciblikdir. İnsanın təbiətində olan alicənab, saf, ülvi, müqəddəs hisslərin məcmusudur. Səmimi olan insan düzgünlüyün, ədalətin, həqiqətin aşiqidir. O, yalanı, riyakarlığı sevmir. Səmimiyyət bütün insani duyğuların anasıdır.

Səmimiyyət qədər insanı kütlələrə qəbul etdirən, sevdirən ikinci bir vəsilə yoxdur. Səmimiyyət olan yerdə sevgi olur, etibar olur, inam olur. Gələcəyə ümid olur.

Mehriban xanım Əliyevanın da dediyi kimi: "İnam və səmimiyyət olan yerdə yaradıcılıq əzmi xariqələr yaratmağa qadirdir".

Bəli, elə gündən-günə abadlaşan, bütövləşən canımız, qanımız doğma Azərbaycanımızın üzərindən qara buludları da inam və səmimiyyət işığı dəf etdi, ulu diyarımız bu işıqla nura boyandı. Bu gün Azərbaycan səmimiyyətə söykənən yolu tutub irəli gedir. Ölkəmizin qazandığı uğur və nailiyyətlərin əsas meyarı da elə səmimiyyətdir. Azərbaycanın qazandığı uğurların səbəblərindən danışan Prezident cənab İlham Əliyev də bunu çıxışlarında bir daha təsdiq edir: ***"...Biz hər zaman qardaşlarımız ilə münasibətlərimizdə ədalətli olmuşuq. Uğurumuzun səbəbi bundadır. Hesab edirəm ki, əsas çıxış yolu və üsul düzgün və səmimi olmaqdır".***

Bəli, səmimiyyət həm də qalibiyyətdir, ədalətdir, dostluqdur, qardaşlıqdır. Müzəffər liderimizi də təkcə xalqına deyil, bütün dünyaya sevdirən səmimi niyyəti, xoş məramıdır. Ölkə başçımızın səmimiyyətdən doğan səadət, məhəbbət, ədalət, sədaqət kimi ülvi dəyərlərini bəzən bir sözdə, bəzən bir andda duymuşuq. Bəzən bir görüşdə, bəzən bir baxışda hiss etmişik. Biz xalq olaraq söz ilə əməlin vəhdətini cənab Prezidentimizin timsalında görmüşük.

Elə yaxın günlərdə Prezidentin Zəngilan səfərindən olan səmimi görüntüləri xalq olaraq hər birimizin qəlbini riqqətə gətirdi. Həmin görüntülərdə alilik xüsusiyyətini insana tutduğu mövqe yox, o ucalığa layiq olan insanın özü qazanır, fikri bir daha öz təsdiqini tapdı.

Prezidentin Zəngilan mənzərələrini qürurla izlədiyi fotolarda yolçəkən baxışları sanki deyirdi ki, könüldən-könülə aşina olan bu yollar arzu, murad, niyyət yoludur, inam, etibar, səadət yoludur. Hələ bu yollarda neçə-neçə arzular çiçək açacaq. Arzular qanadlandıqca bu yerlər gülüstana qərq olacaq... Bu yollar necə də əzizdir, necə müqəddəsdir bizə... Bu yollar birləşdirdi bizi, bütövləşdirdi, bütöv Azərbaycana çevirdi. Bu yolları xalq olaraq üzümüzə açan elə ölkə başçımızın səmimi görüşlərdən başlayan qətiyyəti, ədaləti oldu. Nə qədər enişli-yoxuşlu olsa da, bu yollar Azərbaycana Böyük Qələbə gətirdi.

Azad Zəngilanın gözəl mənzərələrini izlədikcə qəlbində sevinc hissi coşub-daşan əziz Prezidentimizin səmimiyyətdən doğan sevgisi ilə o müqəddəs torpaqlardan xalqına göndərdiyi salam Vətən torpağını, suyunu, səmasını, onun mahiyyətini duyub onu canından çox sevən xalqına ünvanlanan ən səmimi salam idi. O salam həm də vətənləşən şəhidlərə, rəşadətinə, cəsarətinə heyran olduğumuz vüqarlı, əzəmətli Azərbaycan əsgərinə, müqəddəs torpağı qanı ilə sulamağa hazır olan qorxmaz igidlərə, "Torpaq şəhid qanı ilə Vətən olur", – deyən başı uca analara, atalara, "dəmir yumruq" kimi bir olan millətimə göndərilən ən uca, ən ülvi salam idi. O salam insanlıq dəyərlərinə göndərilən salam, dünyaya uzanan qardaşlıq əli, dostluq simvolu idi.

**Gülcamal TAHİROVA**



# Şəhid əmanəti

## *Onlara daim diqqət və qayğı göstərilir*

***Şəhid əmanəti!*** Bu elə bir kəlmədir ki, özündə böyük, yaşanmış bir həyat hekayəsi vardır. Bu hekayə sevincli, kədərli, qürurlu, bir o qədər də ibrətamizdir. Bu, şanlı Vətənin qeyrətli oğullarının hekayəsidir. Bəli, onlar tarixdən heç vaxt silinməyəcək bir hekayə yazdılar. Zəfər hekayəsi, Zəfər dastanıdır onun adı. Bizə isə gedərkən bir ömür qürur duyacağımız tarixi Qələbəni, bir də daim onları xatırladacaq canlarından, qanlarından olan doğma övladlarını əmanət etdilər...

Vətəni sevmək, ona sonsuz məhəbbət bəsləmək, hər qarışı üçün canından keçməyi gözə almaq bu cəsur ürəkli oğulların əsas qayəsi idi. Hansı ki onlar "Vətən oğlu" adını şərəflə daşıdılar. Vətəninin dar günündə birlik olmağı bacardılar, düşmənə qan uddurdular, son damla qanlarınadək döyüşdülər və nəhayətində şanlı Qələbəni xalqımıza bəxş etdilər. Sırf xalqımız bundan sonra rahat yaşasın, daha torpaq, yurd həsrəti çəkməsin, uşaqlarımız o torpaqlarda əbədi yaşasınlar deyə. Yalnız seçilmişlərə qismət olan o yüksək mərtəbəyə – ŞƏHİDLİK məqamına yüksəldilər. Həmin oğullardır ki Şuşanı əlbəyaxa döyüşərək azad etdilər, həmin oğullardır ki Suqovuşana, Lələtəpəyə, Günnütə, Füzuliyə, Cəbrayıla, Zəngilana, Laçına, Xankəndiyə bayraq sancdılar. Müstəqillik rəmzi üçrəngli bayrağımızı işğaldan azad etdikləri torpaqlarımızda əbədi qaldırdılar. Hərbi rütbələri müxtəlif olsa da, amalları, məqsədləri bir idi onların: "Öldü var, döndü yoxdur!", "Təki Vətən sağ olsun!"

Hərəsi bir evin, bir ailənin övladı idi. Hansı ki yüksək ali keyfiyyətlərə malik ailədə doğulub, böyümüş, tərbiyə almışdılar. Zəhmətkeş, hünərli, vətənpərvər ailələrdə. İki övladı şəhid olmuş, üçüncüsü də olsa, onu da Vətən yolunda qurban verməyə hazır, güclü, iradəli ata, anaların övladları idilər. İndi o ata, analar hamımızın atası, anası oldular. Bu gün həmin mənəvi keyfiyyətlərə malik ailələrdə şəhidlərimizin əmanətləri böyüyür. Onların gözündə ataları bir qəhrəmandır. Hansı ki o qəhrəmanlıq nağıllarından oxuduqları, nənə-babalarından dinlədikləri qorxunc divə qalib gələn qəhrəman. Onlar da böyüyəndə ataları kimi yenilməz, güclü, qəhrəman olmaq istəyirlər, ataları ilə fəxr edirlər.

Bu uşaqlar bizə şəhidlərimizin əmanətidir. Bu gün şəhidlərimizin əmanətləri dövlətimizin daim diqqət və qayğısı ilə əhatələniblər. Ölkə başçısı Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhid, qazi ailələrini, övladlarını daim diqqətdə saxlayır. Onlarla görüşləri, səmimi söhbətləri, mehribanlıqları uşaqları sevindirir. Uşaqların təhsili, sağlamlığı, vaxtlarının səmərəli təşkili, müxtəlif tədbirlərdə, bayram şənliklərində iştirakı təmin edilir, onların doğum günləri, şad günləri qeyd edilir, onlara dövlət tərəfindən verilən yeni mənzillərində rahat şəkildə yaşayırlar. Bütün bunlar şəhid əmanətlərinə göstərilən qayğının bariz nümunələridir.

Şəhidlərimizin əziz xatirəsi daim yaşadılır. Qısa, lakin şərəfli bir ömür yaşayaraq əbədiyyətə qovuşmuş şəhidlərimiz hər birimizə örnəkdir. Şəhid uşaqları isə bu Vətənə, xalqa əmanətdir. Əmanətə sahib çıxmaq, onları qorumaq, daim qayğı göstərmək hər birimizin vətəndaşlıq borcudur.

**Güntac ŞAHMƏMMƏDLİ**

# "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1.10-cu maddəyə "çap" sözündən sonra ", audiovizual" sözü əlavə edilsin.

2. 1.1.15-ci maddədə, 18.3-cü maddənin birinci cümləsində, 41.3-cü, 45.1.2-ci və 58.6.2-ci maddələrdə ismin müvafiq hallarında "ictimai təşkilatlar" sözləri ismin müvafiq hallarında "qeyri-hökumət təşkilatları" sözləri ilə əvəz edilsin.

3. 1.1.17-ci, 2.4.2-ci, 41.8-ci, 51.2.6-cı maddələrdə, 56.7-ci maddənin ikinci cümləsində, 81.2-ci maddənin üçüncü cümləsində, 81.3-cü və 81.4-cü maddələrin birinci abzaslarında və 101.1.7-ci maddədə ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media subyektləri" sözləri ilə əvəz edilsin.

4. 8.2-ci maddədə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

5. 17.1-ci maddəyə "ekspedisiyalarda" sözündən sonra ", sanatoriyalarda, istirahət evlərində və xəstəxanalarda" sözləri əlavə edilsin.

6. 18.4-cü maddədən "digər ictimai təşkilatlar," sözləri çıxarılsın.

7. 20.3-cü maddənin birinci cümləsindən, 28.3-cü və 33.4-cü maddələrdən "gizli və ya" sözləri çıxarılsın;

8. 21-ci maddə üzrə:

8.1. adında "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin;

8.2. 21.1-ci maddədə "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin.

9. 22.5-ci maddənin birinci cümləsindən əvvəl aşağıdakı məzmunda cümlələr əlavə edilsin:

"Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası öz aparatını yaradır. Aparatın fəaliyyəti Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edilmiş Əsasnamə ilə tənzimlənir. Mərkəzi Seçki Komissiyası aparatının strukturunu və ştat vahidlərini muxtar respublika büdcəsindən ona ayrılmış vəsait hüdudlarında müəyyən edir.".

10. 25.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"25.1. Mərkəzi Seçki Komissiyasının sədri öz səlahiyyəti dövründə muxtar respublika büdcəsi hesabına əməkhaqqı alır. Mərkəzi Seçki Komissiyasının üzvü (müavin, katib, üzvlər) seçkilərin elan olunduğu gündən seçkilərin nəticələrinin dərc olunduğu günədək muxtar respublika büdcəsi hesabına əməkhaqqı alır.".

11. 26-cı maddə üzrə:

11.1. 26.1-ci maddənin birinci cümləsinə "siyasi partiyalar bloklarının" sözlərindən sonra "səlahiyyətli nümayəndələri," sözləri əlavə edilsin;

11.2. Aşağıdakı məzmunda 26.4.4-1-ci maddə əlavə edilsin:

"26.4.4-1. Ali Məclisin deputatlığına namizəd olduqda;".

12. 27-ci maddə üzrə:

12.1. 27.1-ci maddəyə "45 seçki dairəsi" sözlərindən əvvəl "hər 5 ildən bir" sözləri əlavə edilsin;

12.2. 27.3-cü maddənin ikinci cümləsindən sonra aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiyanın iclasları hər il Azərbaycan Respublikası üzrə vahid seçici siyahısı dəqiqləşdirildikdən sonra iki aydan gec olmayaraq keçirilir.".

13. 29.1.6-cı, 29.1.12-ci, 42.4-cü, 43.4-cü, 83.5-ci və 83.6-cı maddələr ləğv edilsin.

14. 30.2-ci və 35.1-ci maddələrin birinci cümləsində "seçki gününədək" sözləri "seçkilərin nəticələrinin dərc edildiyi günədək" sözləri ilə əvəz edilsin.

15. 30.3-cü maddədə "dairə seçki komissiyasının" sözləri "Mərkəzi Seçki Komissiyasının" sözləri ilə əvəz edilsin.

16. Aşağıdakı məzmunda 31.3-cü maddə əlavə edilsin:

"31.3. Dairə seçki komissiyasının qərarı 24 saat ərzində dərc edilməlidir və dərc olunduğu gündən qüvvəyə minir.".

17. 32-ci maddə üzrə:

17.1. 32.4-cü maddədə "Sərhəd qoşunlarının" sözləri "Sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin.

17.2. 32.5-ci maddədən "seçicilərin müvəqqəti olduqları yerlərdə (xəstəxanalarda və sair)," sözləri çıxarılsın.

18. Aşağıdakı məzmunda 33.6-cı maddə əlavə edilsin:

"33.6. Bu Qanunun 32.4-cü maddəsində göstərilən hallarda seçicilərin sayı 100-dən az olan və 50-dən çox olan və yolu çətin keçilən yerlərdə yerləşən seçki məntəqələrində məntəqə seçki komissiyası seçicilərin ümumi yığıncağında açıq səsvermə yolu ilə seçilir. Bu halda məntəqə seçki komissiyasının tərkibi dairə seçki komissiyası tərəfindən təsdiqlənir.".

19. Aşağıdakı məzmunda 36.3-cü maddə əlavə edilsin:

"36.3. Məntəqə seçki komissiyasının qərarı ən geci 12 saat müddətində dərc edilməlidir.".

20. 37-ci maddə üzrə:

20.1. 37.5-ci maddəyə "siyasi partiyalar blokunun" sözlərindən sonra "və seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının" sözləri əlavə edilsin;

20.2. 37.8-ci, 37.12-ci və 37.15-ci maddələrdə ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media subyektləri" sözləri ilə əvəz edilsin;

20.3. 37.14-cü maddədən ", xəstəxanalarda, sanatoriyalarda və istirahət evlərində" sözləri çıxarılsın.

21. 40-cı maddənin adında, 40.1-ci və 40.2-ci maddələrdə ismin müvafiq hallarında "Kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "Media subyektləri" sözləri ilə əvəz edilsin.

22. 49.2-ci maddənin ikinci cümləsi dördüncü cümlə hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Namizədlərin irəli sürülməsinədək dairə seçki komissiyasının yaradılması başa çatmayıbsa, namizədin irəli sürülməsi haqqında bildirişi, müvafiq namizədlərin razılıq ərizələri və digər sənədlər Mərkəzi Seçki Komissiyasına göndərilir. Mərkəzi Seçki Komissiyası göstərilən sənədləri dairə seçki komissiyasının təşkilindən və sədrinin seçilməsindən sonra ona təqdim edir.".

23. 50.7-ci maddəyə aşağıdakı məzmunda üçüncü və dördüncü cümlələr əlavə edilsin:

"Namizədlərin irəli sürülməsinədək dairə seçki komissiyasının yaradılması başa çatmayıbsa, namizədin irəli sürülməsi haqqında bildirişi, müvafiq namizədlərin razılıq ərizələri və digər sənədlər Mərkəzi Seçki Komissiyasına göndərilir. Mərkəzi Seçki Komissiyası göstərilən sənədləri dairə seçki komissiyasının təşkilindən və sədrinin seçilməsindən sonra ona təqdim edir.".

24. 57-ci maddə üzrə:

24.1. 57.2-ci və 57.3-cü maddələrdə "kütləvi informasiya vasitələrində" sözləri "media subyektlərində" sözləri ilə əvəz edilsin;

24.2. 57.6-cı maddədə "teleradio verilişləri" sözləri "televiziya və radio proqramları" sözləri ilə, birinci halda "kütləvi informasiya vasitələri" sözləri "media subyektləri" sözləri ilə, ikinci halda "kütləvi informasiya vasitələri" sözləri "media vasitəsi" sözləri ilə əvəz edilsin.

25. 62-ci maddə üzrə:

25.1. 62.2.1-ci maddədə "kütləvi informasiya vasitələri" sözləri "media vasitəsi" sözləri ilə əvəz edilsin;

25.2. Aşağıdakı məzmunda 62.2.2-1-ci maddə əlavə edilsin:

"62.2.2-1. çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;";

25.3. 62.3-cü maddənin birinci cümləsində "Kütləvi informasiya vasitələri" sözləri "Media vasitəsi" sözləri ilə, "tele və radioverilişlər" sözləri "televiziya və radio proqramları" sözləri ilə əvəz edilsin.

26. 64-cü maddə üzrə:

26.1. adında "kütləvi informasiya vasitələrinin" sözləri "media subyektlərinin" sözləri ilə əvəz edilsin;

26.2. 64.1-ci və 64.2-ci maddələrdə ismin müvafiq hallarında "teleradio verilişləri təşkilatları" sözləri ismin müvafiq hallarında "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

26.3. 64.3-cü maddədə "Kütləvi informasiya vasitələri" sözləri "Media subyektləri" sözləri ilə əvəz edilsin;

26.4. 64.4-cü maddədə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

27. 65-ci maddə üzrə:

27.1. adında "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə əvəz edilsin;

27.2. 65.1-ci və 65.3-cü maddələrdə "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin.

28. 66-cı maddənin adında "Kütləvi informasiya vasitələrində" sözləri "Mediada" sözü ilə əvəz edilsin.

29. 67.1-ci və 67.2-ci maddələrdə "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin.

30. 68-ci maddə üzrə:

30.1. 68.1-ci maddənin birinci cümləsində "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə, üçüncü cümləsində "teleradio verilişləri təşkilatının" sözləri "televiziya və radio yayımçısının" sözləri ilə əvəz edilsin;

30.2. 68.3.4-cü maddədə "teleradio verilişləri" sözləri "televiziya və radio proqramları" sözləri ilə, "verilişlərin proqramı, verilişin" sözləri "həmin proqramların cədvəli, proqramın" sözləri ilə əvəz edilsin;

30.3. 68.6-cı maddənin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "teleradio verilişləri təşkilatları" sözləri ismin müvafiq hallarında "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin.

31. 69-cu maddə üzrə:

31.1. 69.2-ci maddədə "teleradio verilişləri təşkilatlarının" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə, "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

31.2. 69.3-cü maddənin birinci cümləsində "teleradio" sözü "televiziya və radio" sözləri ilə əvəz edilsin;

31.3. 69.4-cü maddənin birinci cümləsində (birinci halda) "teleradio" sözü "televiziya və radio" sözləri ilə, "teleradio verilişləri təşkilatları" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə, ikinci cümləsində "Teleradio verilişləri təşkilatları" sözləri "Televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin.

32. 75-ci maddə üzrə:

32.1. 75.1-ci maddənin birinci cümləsində, 75.2-ci maddədə, 75.7-ci maddənin üçüncü cümləsində ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media" sözü ilə əvəz edilsin;

32.2. 75.6-cı maddənin birinci cümləsində "teleradio verilişləri təşkilatlarının teleradio" sözləri "televiziya və radio yayımçılarının" sözləri ilə, ikinci cümləsində "teleradio verilişləri təşkilatlarını" sözləri "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin;

32.3. 75.8-ci maddədə (hər iki halda) ismin müvafiq hallarında "teleradio verilişləri təşkilatları" sözləri ismin müvafiq hallarında "televiziya və radio yayımçıları" sözləri ilə əvəz edilsin.

33. 80.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"80.1. Xüsusi seçki hesablarının açılmasının və aparılmasının uçotu, hesabatı qaydası, habelə namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının seçki fondlarına vəsaitlərin daxil olması və xərclənməsi qaydası maliyyə bazarlarına nəzarət orqanı ilə razılaşdırılmaqla, Mərkəzi Seçki Komissiyası tərəfindən səsvermə gününə azı 55 gün qalmış müəyyənləşdirilir.".

34. 83.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"83.4. Mərkəzi Seçki Komissiyası aşağı seçki komissiyalarına ayırdığı pul vəsaitinin verilməsi, hesabatı, qeydiyyat qaydasını maliyyə bazarlarına nəzarət orqanı ilə razılaşdırmaqla müəyyənləşdirir, muxtar respublika büdcəsindən ayrılmış vəsaitin xərclənməsinin maliyyə uçotunu aparır.".

35. 84-cü maddə üzrə:

35.1. 84.2.2-ci maddədən "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin Naxçıvan Muxtar Respublikası üzrə İdarəsindən" sözləri "maliyyə bazarlarına nəzarət orqanından" sözləri ilə əvəz edilsin;

35.2. 84.3.1-ci maddədən ", aşağı seçki komissiyalarının" sözləri çıxarılsın.

36. 85-ci maddə üzrə:

36.1. 85.3-cü maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

"Qeydə alınmış namizədin ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda məlumatda qeydə alınmış namizədin məsuliyyətə alındığı Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı, nömrəsi, namizədin yaşadığı başqa dövlətdə Cinayət Məcəlləsində cinayət sayılan əməli olmuş və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışsa, xarici dövlətin müvafiq qanununun adı göstərilməlidir.";

36.2. 85.6.4-cü maddənin birinci cümləsində "möhürlənir" sözü "kilidlənir" sözü ilə, ikinci cümləsində "Möhürlər" sözü "kilidlər" sözü ilə əvəz edilsin.

37. 88.1-ci maddənin ikinci cümləsində "kütləvi informasiya vasitələri ilə" sözləri "media" sözü ilə əvəz edilsin.

38. 96-cı maddə üzrə:

38.1. 96.2-ci maddədə "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin və həmin maddəyə "edir" sözündən sonra "və həmin məlumatlar Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilə bilər" sözləri əlavə edilsin;

38.2. 96.3-cü və 96.4-cü maddələrdə ismin müvafiq hallarında "kütləvi informasiya vasitələri" sözləri ismin müvafiq hallarında "media subyektləri" sözləri ilə əvəz edilsin.

39. 99.1-ci maddənin birinci cümləsində "kütləvi informasiya vasitələri" sözləri "media vasitəsi" sözləri ilə əvəz edilsin.

40. 103.3-cü maddədə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri" sözləri "Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyası" sözləri ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda ikinci-beşinci cümlələr əlavə edilsin:

"Mərkəzi Seçki Komissiyasının bu barədə qərarı rəsmi dərc edildiyi gündən 10 gün müddətində həmin qərardan Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə şikayət verilə bilər. Həmin şikayətə 15 gün müddətində baxılmalıdır. İş üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 gün müddətində Azərbaycan Respublikasının Ali Məhkəməsinə şikayət verilə bilər.".

41. 104-cü maddə üzrə:

41.1. 104.1-ci maddədə "4-cü" sözü "5-ci" sözü ilə, "Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin" sözləri "Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının" sözləri ilə əvəz edilsin;

41.2. Aşağıdakı məzmunda 104.1-1-ci və 104.1-2-ci maddələr əlavə edilsin:

"104.1-1. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 19-cu maddəsinin I hissəsinin 4-cü bəndində göstərilən hallarla əlaqədar Mərkəzi Seçki Komissiyasına ərizə (rəsmi məlumat) daxil olduqda, Mərkəzi Seçki Komissiyası ərizədə (rəsmi məlumatda) göstərilən faktları 1 aydan gec olmayan müddətdə araşdırır, qərar qəbul edir və bununla əlaqədar mütəxəssislərdən ibarət qrup yarada bilər.

104.1-2. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 19-cu maddəsinin I hissəsinin 6-cı və 7-ci bəndlərində göstərilən hallarla əlaqədar Mərkəzi Seçki Komissiyasına Ali Məclisin rəsmi məlumatı daxil olduqdan sonra 15 gündən gec olmayaraq Mərkəzi Seçki Komissiyası həmin rəsmi məlumatı müzakirə edərək müvafiq qərar qəbul edir.";

41.3. 104.2-ci maddədə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri" sözləri "Mərkəzi Seçki Komissiyası" sözləri ilə əvəz edilsin;

41.4. 104.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"104.3. Deputat mandatının boş qalmasından sonra bir ay müddətində (deputatın mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarından məhkəməyə şikayət verdiyi hallar istisna olmaqla) bu Qanunun 8-ci maddəsi ilə müəyyənləşdirilmiş qaydada müvafiq seçki dairəsi üzrə əlavə seçkilər təyin edilir. Deputatın mandatdan məhrum edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarından məhkəməyə şikayət verdiyi hallarda müvafiq seçki dairəsi üzrə əlavə seçkilər məhkəmədə işə baxılmasının nəticələrindən asılı olaraq təyin edilir.".

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**

**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 31 may 2024-cü il*

# Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası gəlirlər 184 385 484 manat, xərclər 504 316 034 manat məbləğində olmaqla təsdiq edilsin.

**Maddə 2.** Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icra olunmuş gəlirləri və xərcləri aşağıdakı kimi qəbul edilsin:

| Sıra №-si | Göstəricilər | Məbləğ (manatla) |
|---|---|---|
| **2.1.** | **Gəlirlərin mənbələri** | **184 385 484** |
| 2.1.1. | Fiziki şəxslərin gəlir vergisi | 42 387 577 |
| 2.1.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 13 451 086 |
| 2.1.3. | Hüquqi şəxslərin torpaq vergisi | 516 271 |
| 2.1.4. | Hüquqi şəxslərin əmlak vergisi | 2 549 087 |
| 2.1.5. | Əlavə dəyər vergisi | 49 072 663 |
| 2.1.6. | Sadələşdirilmiş vergi | 4 606 613 |
| 2.1.7. | Aksizlər | 41 696 968 |
| 2.1.8. | Yol vergisi | 11 901 609 |
| 2.1.8.1. | Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 11 901 609 |
| 2.1.9. | Mədən vergisi | 1 640 553 |
| 2.1.10. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 248 455 |
| 2.1.11. | Dövlət rüsumu | 8 482 732 |
| 2.1.12. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 5 420 056 |
| 2.1.13. | Sair daxilolmalar | 2 411 814 |
| **2.2.** | **Xərclərin istiqamətləri** | **504 316 034** |
| 2.2.1. | Ümumi dövlət xidmətləri | 68 496 954 |
| 2.2.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 63 553 501 |
| 2.2.1.2. | elm | 4 943 453 |
| 2.2.2. | Müdafiə və milli təhlükəsizlik | 2 006 571 |
| 2.2.2.1. | müdafiə qüvvələri | 1 285 247 |
| 2.2.2.2. | milli təhlükəsizlik | 721 324 |
| 2.2.3. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 65 430 112 |
| 2.2.3.1. | məhkəmə hakimiyyəti | 9 059 893 |
| 2.2.3.2. | hüquq-mühafizə | 49 093 626 |
| 2.2.3.3. | prokurorluq | 7 006 039 |
| 2.2.3.4. | hüquqi yardım | 138 754 |
| 2.2.3.5. | məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 131 800 |
| 2.2.4. | Təhsil | 144 678 977 |
| 2.2.4.1. | məktəbəqədər təhsil | 6 860 640 |
| 2.2.4.2. | ümumi təhsil | 106 725 369 |
| 2.2.4.3. | peşə təhsili | 770 146 |
| 2.2.4.4. | orta ixtisas təhsili | 4 518 982 |
| 2.2.4.5. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 25 803 840 |
| 2.2.5. | Səhiyyə | 9 075 408 |
| 2.2.5.1. | xəstəxanalar | 4 564 835 |
| 2.2.5.2. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 4 510 573 |
| 2.2.6. | Sosial müdafiə və sosial təminat | 61 552 141 |
| 2.2.6.1. | sosial müdafiə | 5 724 152 |
| 2.2.6.2. | sosial təminat | 683 660 |
| 2.2.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 55 144 329 |
| 2.2.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 19 565 035 |
| 2.2.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 13 338 443 |
| 2.2.7.2. | televiziya, radio və nəşriyyat | 4 195 507 |
| 2.2.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 454 711 |
| 2.2.7.4. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər | 1 576 374 |
| 2.2.8. | Mənzil və kommunal təsərrüfatı | 9 450 806 |
| 2.2.8.1. | mənzil təsərrüfatı | 315 460 |
| 2.2.8.2. | kommunal təsərrüfatı | 6 449 987 |
| 2.2.8.3. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 2 685 359 |
| 2.2.9. | Kənd təsərrüfatı | 36 171 549 |
| 2.2.9.1. | kənd təsərrüfatı tədbirləri | 6 313 001 |
| 2.2.9.2. | baytarlıq | 1 797 517 |
| 2.2.9.3. | meliorasiya | 26 425 599 |
| 2.2.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 1 635 432 |
| 2.2.10. | Ətraf mühitin mühafizəsi | 11 137 594 |
| 2.2.10.1. | bioloji zənginliyin qorunması | 671 342 |
| 2.2.10.2. | torpaq və yerquruluşu | 799 996 |
| 2.2.10.3. | hidrometeorologiya tədbirləri | 852 786 |
| 2.2.10.4. | meşə təsərrüfatı | 760 308 |
| 2.2.10.5. | balıqçılıq və ovçuluq | 18 587 |
| 2.2.10.6. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 7 926 781 |
| 2.2.10.7. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 107 794 |
| 2.2.11. | İqtisadi fəaliyyət | 52 756 575 |
| 2.2.11.1. | nəqliyyat və rabitə | 17 810 329 |
| 2.2.11.2. | tikinti və şəhərsalma | 21 970 193 |
| 2.2.11.2.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 21 970 193 |
| 2.2.11.3. | geodeziya və faydalı qazıntılar | 247 059 |
| 2.2.11.4. | yanacaq və enerji kompleksi | 9 978 994 |
| 2.2.11.5. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 2 750 000 |
| 2.2.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 23 994 312 |
| 2.2.12.1. | ehtiyat fondları | 21 501 427 |
| 2.2.12.1.1. | Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 21 501 427 |
| 2.2.12.2. | məqsədli büdcə fondları | 2 020 000 |
| 2.2.12.2.1. | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 2 020 000 |
| 2.2.12.3. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 472 885 |
| 2.2.12.3.1. | digər tədbirlər üzrə xərclər | 472 885 |
| **2.3.** | **2024-cü il yanvarın 1-nə "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun qalığı** | **12 320 185** |
| **2.4.** | **2024-cü il 1 yanvar tarixinə vahid xəzinə hesabının sərbəst qalığı** | **5 698 014** |

**Maddə 3.** Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası nəticəsində həmin ilin sonuna dövlət büdcəsinin vahid xəzinə hesabında yaranan qalıq "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.5-ci maddəsinə uyğun olaraq istifadə edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 31 may 2024-cü il*

# S.A.Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsinə təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Samiq Asəf oğlu Sadıxov Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsinə təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 31 may 2024-cü il*

# E.T.Nəcəfovun Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsinə təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Elxan Tarqulu oğlu Nəcəfov Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsinə təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 31 may 2024-cü il*

## Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının təşkili məqsədilə İşçi Qrupu yaradılıb

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrasının təşkili məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 may tarixli Sərəncamı ilə İşçi Qrupu yaradılmışdır.

Adıçəkilən Sərəncamda İşçi Qrupuna Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nda Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əsas icraçısı olduğu hər bir tədbirin icrası ilə bağlı görülmüş işlərə dair Nazirlər Kabinetinə aylıq hesabat təqdim edilməsi müəyyən edilmişdir.

Məlumat üçün qeyd edək ki, Təfsilatlı Tədbirlər Planında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əsas icraçısı olduğu tədbirlər üzrə icra funksiyasının yerinə yetirilməsi Sərəncamda adları çəkilmiş dövlət orqanlarına həvalə edilmişdir.

## Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilmiş və bir sıra qərarları ləğv edilmişdir

"Naxçıvan Beynəlxalq Hava Limanının "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin tabeliyinə verilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli Qərarının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilmiş və bir sıra qərarları ləğv edilmişdir.

Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 22 iyul tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının şəhər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları"nda, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 oktyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında təbii inhisar subyektlərinin Siyahısı"nda, həmçinin "Naxçıvan Beynəlxalq Hava Limanının ştat cədvəli"nin təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2022-ci il 6 iyul tarixli Qərarı"nda dəyişiklik edilmişdir.

Bundan başqa, "Həbs edilmiş şəxslərin hava gəmisində daşınması Qaydası"nın təsdiq edilməsi barədə, "Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar"ın təsdiq edilməsi barədə, "Naxçıvan Beynəlxalq Hava Limanının ərazisində yerləşən ticarət, ictimai iaşə və xidmət obyektlərinin icarə haqlarının müəyyən edilməsi haqqında", "Naxçıvan Beynəlxalq Hava Limanının nəzarət edilməyən zonalarının təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi barədə", "Naxçıvan Beynəlxalq Hava Limanının tabeliyində "Aeroport Taksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında", "Naxçıvan Beynəlxalq Hava Limanında, xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonunun xidmətlərindən istifadə məsələləri haqqında", "Naxçıvan Beynəlxalq Hava Limanının işçilərinin maddi təminatı və sosial müdafiəsinin gücləndirilməsinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında", eləcə də "Naxçıvan Beynəlxalq Hava Limanında biznes sinif şəxslər (CİP) salonundan istifadə Qaydaları və avtomobil dayanacaq yerlərindən istifadəyə görə ödənişlərin məbləğinin təsdiq edilməsi haqqında" qərarları ləğv edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti***

# Azərbaycanda ilk dəfə olaraq Naxçıvanda regional sığorta forumu keçirilib

Mayın 29-da Azərbaycanda ilk dəfə Naxçıvan şəhərində "I Regional Sığorta Forumu" keçirilib.




Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş forumun iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini yad edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində öz işinə başlayan forumda Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunmuş animasiya nümayiş etdirilib.

Forumda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək forumun əhəmiyyətinə toxunub, uğurlu bir layihə kimi dəyərləndirib. Səlahiyyətli nümayəndə sığorta sahəsində beynəlxalq təcrübələrin Naxçıvana gətirilməsinin zəruriliyini diqqətə çatdıraraq vurğulayıb ki, ötən il suverenliyini tam bərpa edən Azərbaycanda, o cümlədən Qarabağda genişmiqyaslı quruculuq işləri görülür. Sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikasına da bu sahədə böyük pay düşüb. Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixdə imzaladığı Sərəncamla təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" Azərbaycanda bir regionun inkişafı istiqamətində icra olunan ən böyükhəcmli sənəddir. Dövlət Proqramına əsasən muxtar respublikada mühüm infrastruktur layihələri icra olunur. Bu layihələrin icrasında yaranacaq sığorta risklərinin qarşısının alınmasında sığorta şirkətlərinin də üzərinə böyük öhdəlik düşür. Xüsusilə region üçün spesifik olan kənd təsərrüfatı, "yaşıl enerji" dəhlizi, inşaat, yol-nəqliyyat infrastrukturu və turizmin inkişafı istiqamətində yeni sığorta məhsullarının tətbiqinə böyük ehtiyac var.



Fuad Nəcəfli qeyd edib ki, muxtar respublikada infrastruktur layihələrinin reallaşdırılmasında xarici sığorta şirkətləri olduqca maraqlıdırlar. Lakin həmin şirkətlər sığorta məhsullarını yüksək qiymətlərlə təklif edirlər. Buna görə də yerli sığorta şirkətləri vətənpərvərlik və milli mənafelərimizi rəhbər tutaraq bu işlərin həyata keçirilməsində dəstək göstərməli, faydalı əməkdaşlığın qurulmasında maraqlı olmalıdır.

Səlahiyyətli nümayəndə qeyd edib ki, Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının gələcək inkişafında sığortanın rolu danılmazdır. Hazırda Naxçıvanda fəaliyyət göstərən şirkətlər daha çox klassik sığorta növlərinin təbliği və tətbiqinə üstünlük verirlər. Lakin günümüzün reallıqları yeni sığorta növlərinin tətbiqini və ictimai marağın təşkil olunmasını zəruri edir. Fuad Nəcəfli keçirilən forumu dövrün tələbinə uyğun yeni təkliflərin müzakirəsi, konkret hədəflərin müəyyənləşdirilməsi baxımından yüksək qiymətləndirib, forumun işinə uğurlar arzulayıb, təşkilatçılara təşəkkür edib.

Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Ziya Əliyev bildirib ki, sığorta iqtisadiyyatın ən dinamik inkişaf edən sektorlarından biridir. Sığortanın təməlində isə əhalinin və iş adamlarının risklərdən qorunması üzrə etibarlılıq əldə etməsidir. Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən sığorta sistemində yeni tənzimləmə və inkişaf strategiyası həyata keçirilir. Bunun nəticəsində də effektiv nəticələr əldə olunur. Naxçıvanda da sığorta sahəsində mühüm tənzimləmə mexanizmlərinə başlanıldığını deyən Ziya Əliyev qeyd edib ki, ilk dəfə bu il sentyabr ayında muxtar respublikada sığorta maarifləndirilməsi sahəsində geniş bir layihəyə start veriləcək. İlk dəfə Naxçıvanda Sığorta festivalı təşkil olunacaq. Həm Naxçıvan mediasında, həm ənənəvi kütləvi informasiya vasitələrində, həm də sosial mediada sığorta sahəsində intensiv şəkildə maarifləndirmə tədbirləri aparılacaq.

İcbari Sığorta Bürosunun icraçı direktoru Rəşad Əhmədov ötən illərdə Naxçıvanda sığorta sektorunda tənzimləmə mexanizmi sahəsində qeydə alınan problemlərdən bəhs edib. Bildirib ki, 2011-ci ildən İcbari Sığorta Bürosu qarantiya fondu kimi vətəndaşlara dəymiş ziyanı kompensasiya edir. Büroya daxil olan şikayətlərin 80 faizi icbari avtomobil sığortası ilə bağlıdır. Bu baxımdan ötən il vətəndaşlara, təqribən, 1,5 milyona yaxın sığorta şəhadətnaməsi təqdim edilib, 70 minə yaxın sığorta ödənişi həyata keçirilib. Bu da, ümumilikdə, 75-80 milyon manata yaxın sığorta ödənişlərinin həyata keçirilməsi deməkdir. Bu illər ərzində büroya Naxçıvandan heç bir müraciət daxil olmayıb. Minlərlə vətəndaşımız vəfat edən şəxslərin vərəsələri kimi icbari sığorta tərəfindən kompensasiya ödənişi alsa da, bu, Naxçıvanda baş tutmayıb. Artıq Naxçıvan Muxtar Respublikasında bir çox sığorta şirkətinin nümayəndəlikləri var və istənilən sığorta şirkətinin nümayəndəliyinə müraciət edərək ölüm və yaxud bədən xəsarətlərinə dair 2010-cu ildən bəri baş vermiş hadisələrlə bağlı müraciət əsasında kompensasiya ödənişlərinin edilməsi mümkündür.

Azərbaycan Sığortaçılar Assosiasiyasının icraçı direktoru Elmar Mirsalayev forumun təşkilində göstərilən dəstəyə görə təşəkkür edib, ilk forumun 100 illik yubileyi qeyd edilən Naxçıvan Muxtar Respublikasında keçirilməsinin xüsusi əhəmiyyətini vurğulayıb. Bildirib ki, Azərbaycan Mərkəzi Bankının sığortanın inkişafı üçün atdığı dəstəkləyici addımlar Naxçıvanda da etibarlı sığorta sektorunun formalaşmasına və davamlı inkişafına zəmin yaradacaq.

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev qeyd edib ki, Naxçıvan modern inkişafının yeni dövrünü yaşayır. Muxtar respublikanın sosial-iqtisadi inkişafını hədəf alan Dövlət Proqramının icrası bank və sığorta sferalarında da mühüm nəticələrin əldə olunmasına rəvac verir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda bank və sığorta filialları şəbəkəsinin genişləndirilməsi nəzərdə tutulub. Əvvəllər Naxçıvanda 1 özəl sığorta şirkəti fəaliyyət göstərirdisə, bu gün 5 sığorta şirkəti Naxçıvanda təmsil olunur.

Forum çərçivəsində Naxçıvan Muxtar Respublikasında nümayəndəliyi fəaliyyət göstərən sığorta şirkətlərinin iştirakı ilə "Sığortada hadisələrin tənzimlənməsi", "Risklərin idarə edilməsində sığortanın rolu: Niyə sığortalanmalıyıq?", "Regionun riskləri: Hansı sığorta növlərinə müraciət edilməlidir?", "Həyat riskləri və həyat sığortaları: Necə faydalanmaq olar?" və "Sığorta xidmətlərinə əlçatanlıqda elektron vasitələrin yaratdığı üstünlüklər" mövzularında panel müzakirələr təşkil olunub.

Qeyd edək ki, forum Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Sığortaçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə baş tutub.

# Ali Məclisin yaz sessiyası başa çatıb

Mayın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının sonuncu plenar iclası keçirilib.

İclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş) və "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş), Naxçıvan Muxtar Respublikası Baş nazirinin Nazirlər Kabinetinə üzvlüyə dair təqdimatlarına baxılması və İntizam komissiyasının məlumatı daxil edilib.

Ali Məclisin sədr müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, qanun layihəsi 24 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin tələblərinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilib. Daxili Nizamnaməyə əsasən Hüquq siyasəti komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.

Gündəlikdəki birinci məsələ ilə bağlı Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli məlumat verib, təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb.

"Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul olunub.

Anar İbrahimov qanunun hazırlanmasında əməyi keçən hər kəsə, o cümlədən Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasına, Ali Məclisin deputatlarına və Aparatının əməkdaşlarına təşəkkürünü bildirib.



Üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanun layihəsinin müzakirəsi zamanı Anar İbrahimov qeyd edib ki, qanun layihəsi 24 may 2024-cü il tarixdə Ali Məclisin Daxili Nizamnaməsinin tələblərinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilib. Daxili Nizamnamənin müvafiq maddəsinə əsasən İqtisadi siyasət komitəsi tərəfindən üçüncü oxunuş üçün hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev qanun layihəsi haqqında məlumat verib, təmsil etdiyi komitənin rəyini diqqətə çatdırıb.

İclasda "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu səsə qoyularaq qəbul olunub.

Gündəlikdə duran üçüncü məsələ – Naxçıvan Muxtar Respublikası Baş nazirinin Nazirlər Kabinetinə üzvlüyə dair təqdimatlarına baxılması ilə bağlı Ali Məclisin sədr müavini bildirib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin təşkili Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlərdən biri olub, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndi ilə müəyyən edilib. Eyni zamanda Ali Məclisin Daxili Nizamnaməsinin 54-cü maddəsində Nazirlər Kabinetinin tərkibinin təsdiqi proseduru müəyyən olunub. Konstitusiyanın 36-cı maddəsinin II hissəsinə əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Ali Məclis təsdiq edir. Konstitusiyanın 32-ci maddəsinin I hissəsinin 4-cü bəndi ilə Ali Məclisin sədri Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə üzvlüyə namizədləri Ali Məclisə təqdim edir. Naxçıvan Muxtar Respublikasının səhiyyə və təhsil nazirləri vəzifələrinə namizədlər barədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2024-cü il 21 may tarixli təqdimatları daxil olub.

Təqdimatlar oxunduqdan sonra Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsinə namizəd Sadıxov Samiq Asəf oğlu və Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsinə namizəd Nəcəfov Elxan Tarqulu oğlu haqqında məlumat verilib.

Samiq Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri, Elxan Nəcəfovun isə Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinə təsdiq edilmələri ilə əlaqədar Ali Məclisin qərarları ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib. Müvafiq qərarlarla Samiq Sadıxov Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri, Elxan Nəcəfov isə Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinə təsdiq olunublar.

Samiq Sadıxov və Elxan Nəcəfov göstərilən etimada görə minnətdarlıq edib, bundan sonra da muxtar respublikada səhiyyə və təhsil sahələrinin inkişafı istiqamətində əllərindən gələni əsirgəməyəcəklərinə söz veriblər.

İntizam komissiyasının sədri Ehtimad Məmmədov gündəliyə daxil olan sonuncu məsələ – Ali Məclisin İntizam komissiyasının məlumatını diqqətə çatdırıb, Ali Məclisin Daxili Nizamnaməsində müvafiq dəyişikliyin aparılmasını təklif edib.

Anar İbrahimov təklifə Ali Məclisin Aparatında və növbəti sessiyalarda yenidən baxıla biləcəyini qeyd edib, Ali Məclis deputatlarının fəallığı barədə məlumatın hər sessiyadan sonra Ali Məclisin rəsmi orqanı olan "Şərq qapısı" qəzetində yerləşdiriləcəyini diqqətə çatdırıb.

Ali Məclisin plenar iclasına yekun vuran Anar İbrahimov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə əsasən yaz sessiyası mayın 31-dək davam edir. Bu gün 2024-cü ilin yaz sessiyasına yekun vururuq. Sessiya müddətində Ali Məclisin 8 iclası keçirilib, 3 qanun, 11 qərar qəbul edilib, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) illik məruzəsi, parlamentin tarixində ilk dəfə ayrıca prosedur kimi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hesabatı dinlənilib, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Baş naziri Ali Məclis tərəfindən təyin edilib. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ əsasında "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanıb, layihə deputatların səs çoxluğu ilə qəbul edilib, baxılması üçün Milli Məclisə göndərilib. Milli Məclisin 24 mart 2024-cü il tarixdə keçirilən plenar iclasında qanun layihəsinin birinci oxunuşunda Ali Məclis Aparatının nümayəndələri də iştirak edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çap mediası subyektinin təsisçisi olmasını nəzərdə tutan müvafiq dəyişiklik Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli Qanunu ilə qəbul edilib. Yaz sessiyası dövründə Ali Məclisin mükəmməl informasiya resursu – saytı istifadəyə verilib. Bu isə muxtar respublika parlamentinin işini daha şəffaf, əlçatan və hesabatlı edib. Əlavə olaraq saytda qanunlar interaktiv müzakirə üçün yerləşdirilib, digər mühüm sənədlərin vətəndaşlar üçün əlçatanlığı təmin olunub. Beləliklə, Ali Məclis həm nümayəndəli orqan olaraq, həm də muxtar respublikanın ali qanunvericilik orqanı kimi fəaliyyətini davam etdirib, yaz sessiyası üçün qəbul olunmuş qanunvericilik planında əks olunan tədbirlər həyata keçirilib.

Anar İbrahimov Ali Məclisin işinə dəstək verən bütün orqanlara, vətəndaşlara Ali Məclis adından təşəkkür edib.

Sonda Ali Məclisin sədr müavini Anar İbrahimov Ali Məclisin 2024-cü il yaz sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Ali Məclisin 2024-cü il yaz sessiyasının sonuncu plenar iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür



## Ulu Öndər Heydər ƏLİYEV:

*“Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Uşaqlar hər bir insanın mənəviyyatıdır. Ona görə də dünyada, hər bir insanpərvər cəmiyyətdə uşaqlara daim xüsusi qayğı, xüsusi diqqət göstərilibdir. Uşaqlar daim qayğı altında olmalıdır, onları qorumaq, müdafiə etmək, böyütmək, insan cəmiyyətinin fəal iştirakçısı, fəal üzvü etmək lazımdır. Azərbaycanın prezidenti kimi mən bu gün bəyan edirəm ki, uşaqlara, körpələrə olan qayğı bütün qayğılardan üstündür.”*

## Uşaqlarımızın gələcəyi bizdən, bizim isə gələcəyimiz onlardan asılıdır

Uşaq və yeniyetmələr üçün nəzərdə tutulmuş “Məktəbli” qəzeti 2023-cü ildə Naxçıvan şəhərində təsis edilmiş və ilk sayı həmin ilin sentyabr ayında “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuşdur. Ayda bir dəfə məktəblilərin görüşünə gələn qəzetin əsas məqsədi uşaq və yeniyetmələrdə oxu və yazı vərdişlərini inkişaf etdirmək, onları zərərli informasiya vərdişlərindən yayındırmaq, istedadlı şagirdləri üzə çıxarmaq, onların bu mətbu orqanla əlaqələrini təmin etməkdir. “Məktəbli” qəzeti, eyni zamanda yaradıcı sahələrə (jurnalist, fotomüxbir, rəssam, şair və sair) həvəsi olan şagirdlərə müxtəlif mövzularda işləmək və nəşr olunmaq imkanı verir.

Fəaliyyət göstərdiyi dövrdə qəzetin hər sayı şagirdlər tərəfindən maraqla qarşılanmış, Naxçıvan Muxtar Respublikası ilə yanaşı, ölkəmizin digər bölgələrində də uşaq və yeniyetmələrin diqqətini cəlb etmişdir. Müxtəlif maraqlı layihələrlə şagirdlərin görüşünə gələn “Məktəbli” qəzeti artıq onunla fəal əməkdaşlıq edənlərə “Həvəskar müxbir”, “Həvəskar fotoqraf” və “Həvəskar rəssam” kateqoriyaları üzrə vəsiqələr təqdim edərək bu əməkdaşlığı daha da genişləndirmişdir. Bir tədris ili boyunca etibarlı olan bu vəsiqələr məktəblilərə uyğun kateqoriyalar üçün material hazırlamağa və məxsusi imza ilə dərc etdirməyə imkan verir. Bütün bunlar həm də ona imkan verir ki, Azərbaycanımızın müxtəlif bölgələrindən olan uşaqlar “Məktəbli” vasitəsilə bir-birini daha yaxından tanısın, dostluq əlaqələri qursun, faydalı əməkdaşlıq münasibətlərindən yararlansınlar.

Əziz valideynlər, müəllimlər! “Məktəbli” qəzetinin redaksiya heyəti 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bütün uşaqları təbrik edir, onlara sağlam və firavan həyat arzulayır. Gəlin bu yolda həmrəy olaq. Unutmayaq ki, uşaqlarımızın gələcəyi bizdən, bizim isə gələcəyimiz onlardan asılıdır.



**Səbuhi HƏSƏNOV**
*“Məktəbli” qəzetinin baş redaktoru*









**İbrahimli Aliyə**
Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin II sinif şagirdi



Mənim sevimli müəlliməm
Müəllimlər həyatda ən gözəl insanlardır. Çünki onlar şagirdlərə elm öyrədirlər. Buna görə də onları hamı sevir. Mən də öz müəlliməmi sevirəm. Çünki o da sinifimizin şagirdlərini çox istəyir. Məstanə müəllimə bizə qayğı ilə yanaşır. O bizə dərslərimizi yaxşı oxumağı, yaxşı yazmağı öyrədir. Çətinliyimiz olanda bizi başa salır. Boş vaxtlarımızda bizi gəzməyə aparır. Məktəbdə keçirilən tədbirlərdə iştirak edirik. Biz də çalışırıq ki dərslərimizi hər zaman yaxşı oxuyaq, Məstanə müəllimə bizdən razı qalsın.



**Meydanov Əli**
Şərur şəhər 2 nömrəli tam orta məktəbin V sinif şagirdi



Zəngilan rayon Ağalı kənd tam orta məktəbdə oxuyan məktəbli dostlarıma. Əziz dostlarım mən də sizin kimi şagirdəm Şərur şəhərində yaşayıram siz bəlkə də buranı tanımırsınız amma mən Zəngilanı tanıyıram. Çünki atam kapitan Meydanov Elməddin Zəngilan rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. Mən dərslərimi yaxşı oxuyuram əsas da tarix dərsini. Çünki atam kimi igidlər bizə qələbə gətirdi tarixi yenidən yazdı. Mən istəyirəm ki, siz də yaxşı oxuyub atam kimi şəhidləri tanıyasınız. Atamda bunu istəyirdi. Onlar biz uşaqların gələcəyi gözəl olsun deyə öz canlarından keçdilər. Gəlin biz də onları unutmayaq və yaxşı oxuyaq. Sağ olun dostlar. Məktubum sizə çatanda siz də mənə məktub yazın. Sağ olun.

## Xanım qızlar iş başında









## Məktəblilər valideynlərinin ən yaxın köməkçiləridirlər











# Naxçıvanda doğum günü may ayında olan şəhidlərin xatirəsi anılıb



Mayın 29-da Naxçıvanda doğum günü may ayında olan şəhidlərin anım tədbiri keçirilib.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə keçirilən tədbirdə dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri və tələbə-gənclər iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan televiziyasının doğum günü may ayında olan şəhidlərlə bağlı hazırladığı videoçarx nümayiş etdirilib. Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri videoçarxda adları çəkilən 39 Birinci və İkinci Qarabağ müharibəsi şəhidinin portreti ilə səhnəyə çıxıblar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxışında may ayının Azərbaycan üçün əlamətdar hadisələrlə yaddaqalan olduğunu bildirib. Ümummilli Liderimizin doğum gününün və Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının müstəqil Azərbaycanın şanlı tarixinin mühüm səhifələri olduğunu qeyd edən səlahiyyətli nümayəndə şəhidlərimizin doğum günlərini də xalqımızın daim xatırlayacağı önəmli tarix kimi dəyərləndirib. Qeyd edib ki, belə qəhrəman övladlarımızın şücaəti sayəsində 30 ildən artıq Qarabağ həsrəti sona çatıb, Azərbaycanın ərazi bütövlüyü tam təmin olunub. Ermənistan artıq regiondakı reallıqlarla barışmalı, revanşizm xülyalarından əl çəkməlidir. Əks halda "dəmir yumruğu" yenidən başının üzərində görəcək.

Fuad Nəcəfli Prezident İlham Əliyevin ordu quruculuğu və regionda sabitliyin bərqərar olması yönündə uğurlu siyasətini fəxarət hissi ilə diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan tarixi torpaqlarının bir qarışını belə kimsəyə vermək niyyətində deyil. Ölkəmizdə davamlı ordu quruculuğu prosesi gedir və silahlı qüvvələrimizin döyüş qabiliyyəti yüksəlir. Bütün bunlar sülh üçün aparılan islahatlardır.

Səlahiyyətli nümayəndə şəhidlərin hər birinin xatirəsini bir daha yad edib, onlara Allahdan rəhmət, ailələrinə səbir, qazilərə və müharibə veteranlarına cansağlığı arzulayıb, dövlətimizin bu kateqoriyadan olan ailələrə dəstəyinin davamlı olacağını bildirib.

Tədbirdə şəhid mayor Elbrus Əhmədovun atası Səmrəddin Əhmədov və şəhid baş leytenant Zülfü Rzayevin anası Mehparə Rzayeva çıxış edərək Azərbaycanı yenidən bütövləşdirib dünyaya tanıdan övladlarının xatirəsini fəxarət dolu hisslərlə dilə gətirib, onlarla daim birlikdə olan dövlətimizlə və xalqımızla qürur duyduqlarını vurğulayıb, davamlı anım tədbirlərinin təşkil olunmasına görə təşəkkür ediblər.

Sonda Naxçıvan Dövlət Universitetinin tələbə teatr studiyası və "Belkanto" vokal qrupunun birgə hazırladığı şəhidlərin xatirəsinə həsr edilmiş bədii kompozisiya təqdim olunub.

# Azərbaycan rəsmiləri Çində səfərdə olublar




Xəbər verdiyimiz kimi, mayın 21-dən başlayaraq Çinin Chongqing şəhərində dünyanın 26 ölkəsinin 40 şəhərindən olan nümayəndələrin iştirakı ilə Chongqing Beynəlxalq Dostluq Şəhərləri Əməkdaşlıq Konfransı - 2024 keçirilib.

Beynəlxalq Bioloji Müxtəliflik Günü münasibətilə təşkil olunan konfrans "Biomüxtəlifliyin Qorunması üzrə Beynəlxalq Dost Şəhərlər Əməkdaşlıq Təşəbbüsü"nə birgə başlamağa və dostluq şəhərlərin əməkdaşlığı vasitəsilə biomüxtəlifliyin qorunması üzrə qlobal səylərə töhfə vermək məqsədi daşıyıb. Tədbir dialoqlar, fikir mübadilələri və qarşılıqlı müzakirələr şəklində təşkil edilib.

Konfransa qatılan Azərbaycan nümayəndə heyətinin tərkibində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli və Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini, icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Əhməd Vəliyev də təmsil olunublar.

Konfransın ilk günündə nümayəndə heyətinin Şəhər Sənaye Kooperasiyası ilə görüşü baş tutub. Mayın 22-si günün 1-ci yarısı Chongqing Beynəlxalq Dostluq Şəhərləri Əməkdaşlıq Konfransının açılış və imza mərasimi, günün ikinci yarısı Yaşıl Şəhərin İnkişafı Forumu: Yaşıl, Dayanıqlı və Sənaye şəhərlərinin qurulması, ağac əkilməsi və Chongqing Beynəlxalq Dostluq Şəhərləri Yemək Qatının (Alış-veriş mərkəzlərinin yemək üçün ayrılmış xüsusi bölməsi) açılış mərasimində iştirak ediblər. Mayın 24-ü Elm Şəhəri Jiangjin Bölgəsində Chongqing RATO Holding Group Co.Ltd., Chongqing Air Camel Tech Co., Ltd, Jiangjində Beynəlxalq Logistika Qovşağı Sərgi Mərkəzi, Chongqing Hub Port Sənaye Parkı, Şapingbada Seres Group Co. Ltd şirkətləri ziyarət edilib və qarşılıqlı fikir mübadiləri, müzakirələr aparılıb.

Mayın 27-si nümayəndə heyəti Pekin şəhərində Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı Səfirliyində olub. Səfir Bünyad Hüseynov nümayəndə heyəti ilə Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında ikitərəfli münasibətlər, Azərbaycan-Çin əlaqələrindən danışıb və qonaqları səfirliyin inzibati binası ilə tanış edib.

Sonda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli tərəfindən Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı səfirinə Naxçıvanın mədəniyyət abidəsi olan Möminə xatın türbəsi işləməli xatirə hədiyyəsi təqdim olunub.

## "Mehmandan Zəfərə gedən yol" adlı tədbir keçirilib



*Şahbuz rayonunda şəhid Mehman Orucovun anım gününə həsr olunmuş "Mehmandan Zəfərə gedən yol" adlı tədbir keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən müharibəsi qəhrəmanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Malikqızı çıxış edərək bildirib ki, Azərbaycan Vətən müharibəsində öz dəmir ürəkli, dəmir biləkli oğullarının sayəsində zəfər qazandı. Ürəyimizdə həm Vətən uğrunda qurban gedən oğullarımızın nisgilini, həm də qalibiyyətin qürurunu yaşayırıq. Heç bir müharibədə şəhid vermədən qələbə qazanmaq olmaz.

Vurğulanıb ki, şəhidlərimizin ruhuna hörmət, onların ailələrinə qayğı göstərilməsinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Onun müəyyənləşdirdiyi siyasi kurs bu gün Ümummilli Liderin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasının timsalında da bunu görmək olar.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Texniki Kollecinin direktoru Asəf Ruşanov, Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Cəlal Paşayev və şəhid yaxınlarının çıxışları dinlənilib.

Sonda Texniki Kollecin tələbələri vətənpərvərlik ruhunda kompozisiyalar nümayiş etdiriblər.

# Azərbaycan dövləti vətəndaşını məhkumluğa alışdırmır, islaha sövq edir



Nail ƏSGƏROV

***"Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir, Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir, Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol xalq yoludur"*** fikirlərinin müəllifi Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizdə demokratik dəyərlərin formalaşdırılması, insan hüquq və azadlıqlarının təmini istiqamətində ciddi islahatlar həyata keçirib. Azərbaycanın məhkəmə, hüquq sistemi uzun yol qət etsə də, ən təkmilləşdirilmiş ədalət prinsiplərini məhz Ulu Öndərin sayəsində qazanıb. Dahi şəxsiyyətin həyata keçirdiyi dövlət siyasətinin mahiyyətini özündə əks etdirən humanistliyin nəticəsində əfv və amnistiya təsisatları yaradılıb, 1995-2003-cü illərdə 7 amnistiya aktı qəbul edilib və 32 əfv fərmanı imzalanıb. Bu amnistiya aktları 77 mindən çox insana şamil edilib, bunlardan 21 min 325 nəfəri cəzasının çəkilməmiş hissəsindən azad olunub.

Görkəmli dövlət xadimi tərəfindən imzalanan əfv fərmanları ilə 3 mindən artıq şəxs cəzadan azad edilib. Hətta Ulu Öndər böyük humanistlik göstərərək əfv fərmanları ilə 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərində iştirak edən insanların da bir qismini bağışlayıb. Məhz görkəmli dövlət xadiminin insan hüquq və azadlıqlarına verdiyi qiymətin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü də aradan qaldırılıb və Azərbaycan adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşüb. Əvvəlcə ölüm hökmü üzərində moratorium qoyulub, 1998-ci ildə isə bu cəza tamamilə ləğv edilib.

Ulu Öndərin ideyalarını yeni müstəvidə uğurla reallaşdıran ölkə Prezidenti cənab İlham Əliyev vətəndaşlara qayğının əsas təzahürü kimi ötən illərdə dəfələrlə məhkum olunmuş bir sıra şəxslərin əfv olunması barədə sərəncamlar imzalayıb. Dövlət başçısı, adətən, bu humanist addımları xalqımız üçün əziz olan bayramlarda, əlamətdar tarixi günlərdə atır ki, bu həm də çoxəsrlik milli-mənəvi dəyərlərimizə hörmətin ən ali ifadəsidir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə 2018-ci il 24 may tarixli əfv Sərəncamı 634 məhkuma şamil edilib. Ötən il Ümummilli Liderimizin anadan olmasının 100 illiyi ilə əlaqədar əfv Sərəncamı isə Azərbaycan tarixində ən çox insanın azadlığa buraxılmasına əsas verən Sərəncam kimi tarixə düşüb. Belə ki, Sərəncama əsasən 801 məhkum əfv olunub, onlardan 463 şəxs azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilib. Əfv sərəncamlarında ən çox diqqətçəkən amillərdən biri də, heç şübhəsiz, dünyəviliyin qorunması, xalqlar, millətlər arasında ayrı-seçkiliyə yol verilməməsidir. Bu baxımdan ötən il əfv edilmiş məhkumlardan 14-ü əcnəbidir. Sərəncamla onlardan 12-si cəzadan tam, 2-si isə cəzanın yarı hissəsindən azad olunub. Ən böyük amnistiya qərarı isə 2021-ci ildə qəbul edilib. Belə ki, Azərbaycan Prezidentinin təşəbbüsü əsasında Milli Məclis tərəfindən qəbul edilmiş "8 Noyabr – Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 2021-ci il 5 noyabr tarixli Qərar 17 min 267 şəxsə şamil olunub. Bu qərar tətbiq olunan şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən geniş amnistiya hesab edilir.

Bu il Müstəqillik Günü ərəfəsində imzalanan əfv Sərəncamı sayca 70-cidir və ümumilikdə, 154 məhkuma şamil edilib. Onlardan azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 63 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib, 52 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış 1 nəfər cəzadan azad edilib. Həmçinin azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 28 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad olunub, 3 şəxsin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Eləcə də islah işləri cəzasına məhkum edilmiş 2 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum edilmiş 4 nəfər isə cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzasını çəkmiş 1 şəxsin məhkumluğu götürülüb. Əfv olunan şəxslər arasında xarici ölkə vətəndaşları və qadınlar da var. Belə ki, Sərəncama əsasən 8 əcnəbi əfv edilib ki, onlardan 5-i Əfqanıstan, 2-si Türkiyə, 1-i Rusiya vətəndaşıdır.

Sərəncam Naxçıvanda bir nəfərə şamil olunub. Qeyd edək ki, uzun illərdir, Prezidentin əfv sərəncamlarına əsasən muxtar respublikada amnistiya azadlığından istifadə edən məhkum olmayıb. Ötən il Ümummilli Liderimizin anadan olmasının 100 illiyi münasibətilə imzalanan əfv Sərəncamı ilə bir məhbusun cəza müddəti yarıya endirilib. Onu da xüsusi vurğulamaq yerinə düşər ki, cəzaçəkmə müəssisələrində məhbusların istedadlarının üzə çıxarılması və gələcəkdə cəmiyyətə adaptasiyası üçün müvafiq tədbirlər də həyata keçirilir. Məhbuslar təlimlərə, kurslara cəlb olunur, onların əl işləri festivallarda, bayram konsertlərində nümayiş olunur, məşğulluqlarının təmini istiqamətində addımlar atılır.

Ümumilikdə, ölkə Prezidentinin imzaladığı əfv sərəncamları ilə hər il çoxsaylı insanların azadlığa çıxması belə deməyə əsas verir ki, Azərbaycan dövləti vətəndaşını məhbusluğa alışdırmır, onu islaha sövq edir. Dövlət başçısının bu addımları Ulu Öndərin nəcib təşəbbüslərinə, humanizm ənənəsinə sadiqliyin göstəricisi olmaqla insan amilinə verilən dəyərin təzahürü, hüquq və azadlıqların təmini ilə bağlı ölkəmizin tərəfdar çıxdığı beynəlxalq təşkilatların fəaliyyətinə dəstək rolu oynayır.



*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Babək rayonunun Məmmədrza Dizə kəndindən olan şəhidimiz Ayaz İbrahimovun anası Gülü İbrahimovanın, Ordubad rayonunun Düylün kəndindən olan şəhidimiz Mətin Hüseynovun anası Zümrüd Hüseynovanın və Babək rayonunun Şıxmahmud kəndindən olan şəhidimiz Fərmin Əliyevin anası Fatma Əliyevanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Ayaz Sultan oğlu İbrahimov

*(09.06.1998-10.11.2020)*

## Anasına bayraq hədiyyə edən şəhid





Ayaz balaca vaxtından fərqli uşaq idi. 4-5 yaşı olardı. Həyətdə paltar yuyurdum. Küçədə uşaqlar musiqiyə gedirdilər. Çağırdı ki, ay ana, tez gəl bura. Dedim, Ayaz nə olub? Dedi, gəl bax ey oğlanlarım gəlir. Deyirdi, bunlar mənim uşaqlarımdı. Gedirlər məktəbə. O qədər zarafatcıl idi. Çox həyat dolu idi. Nə kin, nə paxıllıq. Hamısı balamdan uzaq idi.

Deyirdi, ana, səni elə yaşadacam ki. IX sinifdə oxuyurdu. Dedi ki, ana, sənədlərimi vermişəm hərbi liseyə. Dedim, ay bala, evin tək uşağısan getmə. Getdi imtahana gəldi dedi, ana, sənə görə yazmadım.

Qohumlarımızdan çoxu hərbçidir. Onlar bizə gələn kimi paltarlarını geyinirdi. Çiyin sümüyündə sınıq var idi. Çağırışa getdi. Dedilər ki, yararsızdır. Getdi çiynindəki mili çıxardı ki, onu əsgərliyə aparsınlar. Əsgərliyə getdi. O qədər həvəslə, istəklə əsgərliyini etdi ki, ifadə edə bilmirəm. O qədər həvəsi var idi ki, əsgərliyini bitirib hərbidə qaldı. Dedi, ana, mənə icazə verin, mən burada qalmalıyam. Sonra sənədlərini verib xüsusi təyinatlı kimi işə başladı.



Bir dəfə atası işləyəndə yanına getmişdi. Görüb ki, Ayaz çox zəifləyib. Deyib, oğul, sənə nə olub? Deyib, ata, bir həftədir, yemək yemirəm ki, çəkim xüsusi təyinatlı olmağıma mane olmasın. İşini çox sevirdi Ayaz. Sonra yenə getmişdi yanına. Ayazı görəndə təəccüb edib. Deyirdi, Ayaz cəsur hərbçilərə xas görüntüsü ilə sevinirdi ki, mən xüsusi təyinatlı qüvvələrdə xidmət edəcəyəm.

Bayrağımızı çox sevirdi. Müharibəyə getməmişdən qabaq gətirib mənə bir bayraq verdi. Daha demədi ki, canından çox sevdiyi bayrağa bükülərək mənim yanıma gələcəkdir. Sonuncu dəfə noyabrın 7-si danışdıq. Noyabrın 9-da saat 6-da şəhid oldu. Müharibənin bitməyinə 18 saat qalmış... Şəhidliyi ilə bayrağını daha da müqəddəsləşdirdi.

## Mətin Ramiz oğlu Hüseynov

*(20.10.1997-09.11.2020)*

## Hər yerdə izləri yaşayan qəhrəman





Mətin çox mehriban və vətənpərvər idi. İlk dəfə atası Mətini qucağına alanda ona bir söz pıçıldadı. Qulağına dediyi ilk kəlimə o oldu ki, bu işlər bizlərdən keçdi. Vətəni azad etmək artıq sizlərə qaldı. Gün gələr, inşallah, bu torpaqlarımızı sizlər azad edərsiniz.

Hətta atası lap balaca vaxtlarından iki qardaşın ikisinə də silah atmağı öyrədirdi. Deyirdi, öyrənsinlər ki, gələcəkdə silah səsinə qorxmasınlar. İgid kimi döyüşsünlər.

Çox natiq idi. Hətta akademiyada təhsil alarkən oranın jurnalisti olub. Çox yaxşı mühəndisliyi var idi. Yanına bir neçə material qoysan, ondan silah yığardı. Hərbi liseyə də, akademiyaya da yüksək balla daxil olmuşdu. Həm liseydə, həm də akademiyada manqa komandiri oldu.



Hərbi akademiyada təhsil aldığı müddətdə paltar və əşyalarını qoymaq üçün kirayə balaca bir yer var idi. Evin sahibi Mətin şəhid olduqdan sonra o evi sökdü. Ağlaya-ağlaya deyirdi ki, Mətinlə dünya var idi. İndi isə yoxdur. Mətin o qədər özünü sevdirən, hər kəsə hörmət bəsləyən biri idi.

Heç yadımızdan çıxmır. Hərbi liseyə qəbul olduqdan bir ay sonra oradan evə zəng gəldi. Zəng vurdular ki, sağ olun, belə bir vətənpərvər övlad yetişdirmisiniz. Dedilər ki, biz Mətini təhsil alması üçün xaricə göndərmək istəyirik.

İşinə görə telefon əlaqələrimiz az-az olardı. 2020-ci il iyun ayında məzun oldu. Göndərdilər Ağcabədiyə. Uzun müddət danışa bilmədik.

Döyüş yoldaşları danışır ki, həmişə özü qabaqda gedirdi. Heç kəsi irəli buraxmırdı. Oktyabrın 24-ü yaralanıb. İki dəfə yaralanıb. Yaralı olsa da, bir neçə yaralını döyüşdən çıxarıb. Sonra yenidən döyüşə qatılıb.

Əsgəri danışırmış ki, noyabrın 7-si mən yaralandım. Mətin bizim komandirimiz idi. Sonuncu dəfə döyüşdə yaralandıqda Mətini görüb. Deyirdi ki, Mətin başımızın üstündə idi. Məni o yola saldı. Sonra ondan heç bir xəbər ala bilmədik.

Sonuncu dəfə noyabrın 2-si gecə idi bizə zəng vuranda. Sadəcə, dedi ki, hər şey yaxşıdır. Məndən nigaran qalmayın. Mətin bizi ömürlük nigaran qoyub getdi. Bu gedişi ilə həm də arxasında azad Vətən torpaqlarını yadigar buraxdı.

## Fərmin Fərman oğlu Əliyev

*20.03.1996-29.09.2020*

## Bayraq sevdalısı şəhidim





Fərmin balaca vaxtlarından sevilən uşaq olub. Atası ilə nəfəs alırdı. Ondan heç ayrılmırdı. Qoymazdı ki, atası bir ağır iş görə. Məktəbdə də, kənddə də çox sevilirdi. Atası çox istəyirdi ki, mülki ixtisas üzrə ali təhsil alsın. Amma Fərmin dedi, yox, ata mən hərbçi olacağam. Məqsədi hərbçi olmaq idi. Birinci il imtahan verdi qəbul ola bilmədi. Boyu balaca olduğu üçün götürmədilər. İkinci il yenidən imtahan verdi və qəbul oldu. Sevincinin həddi-hüdudu yox idi.

Hərbi liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu və oranı uğurla bitirdi. Təyinatı Mingəçevirə verildi. Sonra bura gəlib evləndi. Millətini, xalqını, bayrağını sevən balam toyunda çiyninə bayrağımızı salaraq oynadı. Maşınlar, evimiz, mağar, hər tərəf bayraqlarla bəzəndi. Bayrağına sevgisi o qədər sonsuz idi ki, hətta toy gününü 9 noyabr bayraq gününə təyin etmişdi.

2020-ci ilin mart ayında gəlmişdi Fərminim. Pandemiya olduğu üçün ailəsini burada qoyub, özü xidmətə getdi. İnanın ki, apreldə xidmətə qayıdanda təyyarə yox idi. Zorla özünə bilet tapıb getdi. Getdi və bir daha Fərmini görə bilmədik.

Müharibədən qabaq atasına zəng vurmuşdu. Dedi, Fatiməni (yoldaşını) hər şeyə hazırlamışam. O hər şeyə hazırlıqlıdır. Siz də mətin olun. Onu sizə əmanət edirəm.

Sonuncu dəfə sentyabrın 28-i telefonla danışdıq. Atası dedi vəziyyət necədir? Dedi, vəziyyətdir də. Soruşdu, oğul, qorxmursan? Dedi, ata, qorxmaq nədir. Həyəti saxlaya bilmirik. Hər kəs döyüşmək istəyir. Qorxu söhbəti yoxdur.



Fərminimiz şəhid olduqdan sonra bir oğul payımız oldu. İndi Fərmin olmasa da, onun iki yadigarı bu evdə yaşayır. Övladı və şəhidliyinə alışdırdığı Fatiməsi. Hər ikisi bizim övladımızdır. Bayraq sevdalısı Fərminimiz indi çox sevdiyi Vətən torpağında rahat uyuyur. Çünki onun azad görmək istədiyi Vətən torpağı düşmən işğalından azad edilib. Bu gün Xankəndi başda olmaqla bütün torpaqlarımızda Azərbaycan Bayrağı dalğalanır. Vətən sağ olsun!



# Hamı sənə bənzəyir, sən kimə bənzəyirsən?

**Məhəmməd Füzuli – 530**

Poeziya tariximizin günəşi olan Füzuli ədəbiyyat tarixində həzin sevgilərə, titrək hisslərə hər daim çıraq olub, yol olub. Onun dövründə Avropada ədəbiyyat çiçəklənib, Orta Şərqdə isə zülmətə qərq olurdu. Buna görə də Füzuli Orta Şərq klassik ədəbiyyatının sonbeşiyi sayılırdı. Avropanın qaranlıq və sükuta dalmış ədəbiyyatından sonra baş qaldırmış şairlər, Miltondan tutmuş Danteyə qədər hər kəs birinin paltosu altından çıxıb. Lakin Füzuli palto altından çıxmadı. İtaliyada Mikelancelo, Rafael və Da Vinçi rənglərlə insanları ovsunladığı bir zamanda dünyanın eşq üzərində dayandığını israrla sübut edən Füzuli intibah nəhənglərini bir-birindən xəbərsiz bir-birinə səsləyə bildi. Müasir dövrdən keçmişə – sərt reallıqdan yumşaq romantizmə belə qəfil keçid, deyəsən, Füzulini narahat etmir. Eynən Prustun “İtirilmiş zamanın axtarışında” olması kimi.

Taleyinə şair və alim olmaq yazılmış Məhəmməd Süleyman oğlu Füzuli Dədə Qorqudun qopmuş olduğu Bayat boyundan boylanaraq 1494-cü ildə dünyaya göz açdı. Təzkiraçi Sadıq bəy Əfşar 1598-ci ildə tamamladığı “Məcmə ül-xəvas” əsərində bunu təsdiqləyir: “Mövlana Füzuli Bayat qəbiləsindəndir. Dünyəvi elmləri öyrənməklə məşğul olub, az zamanda mükəmməl təhsil almışdır. Həqiqətən, heç bir insana bu istedad səadəti əl verməyibdir ki, farsi və ərəbi kəlama, beləcə, qadir olsun”.

Klassik qəzəl ədəbiyyatı tarixində Füzuli qədər zəngin söz ehtiyatına malik ikinci bir şair tapmaq mümkünsüzdür. Ustad sözə o qədər yüksək qiymət verib ki, Leyli kimi qəlb ovlayıb, Məcnun kimi ürək yaxıb. O, adət-ənənələr tərəfindən əzilən, heysiyyəti tapdalanan, arzu və istəklərindən kam almadan solan Şərq qadınının acınacaqlı taleyini lirik-epik faciəsində oxucu qəlbinə bir ocaq salıb, od qalayıb. Solmayan, saralmayan, hər gün öldükcə dirilən bir eşq hekayəsi yaradıb. Bu günədək də heç bir şair Şərqin üç dilində (türk, fars və ərəb) Füzuli kimi mükəmməl əsərlər yarada bilmədi. Tək bununla da bitmir onun ustadlığı. Dövrün qələm sahiblərinin əsərləri ədəbi forma və janrların sınağına məruz qalarkən Füzuli qələmi kimi zərif tərənnümlü, incə toxunuşlu və cilalı nümunələr yarada bilmədi. “Qəlb şairi” kimi tanınan şair qədər heç kim oxucu ürəyinə toxuna bilmədi. Təkrarsız üslub sahibi olan Füzuli kimi heç kəs ədəbi yaradıcılıq qarşısında müxtəlif dövrlərin və zamanların sınağından uğurla çıxa bilmədi. Ədəbi dilimizi tarixən heç kəs Füzuli kimi fars və ərəb dillərinin hegemonluğundan xilas edə bilmədi. Çox az şairə qismət olar ki, mənəviyyatı, qəlbi və ruhu hər misrasından görünsün və əzəli məhəbbətdən, səmimilikdən yoğrularaq Füzulidəki qədər bütün əzəməti və aydınlığı ilə qəlb oxşasın. Zərif üslubu təkrarolunmayan sənətkarın ucaltdığı möhtəşəm söz binasında hər bir daşın heykəltaraş əlindən çıxıb mükəmməl cilalandığını görüb heyran olmamaq mümkünsüzdür. Əlçatmaz zirvələrin qüdsiyyətini özündə ehtiva edən Füzuli misra-misra, beyt-beyt tökülür dillərdən. Ustadın şeirlərinin batini zahirindən o qədər bənzərsiz və tərənnümsüzdür ki, onu oxuyan, hifz edən düşünür ki, sanki o, sözün şəklini çəkib.

Aristotel yazır: “Yalanı necə məharətlə işlətmək üsulunu başqa şairlərə ən çox öyrədən Homerdir”. “Aldanma ki, şair sözü, əlbəttə, yalandır” söyləyən Füzuli də Azərbaycan poeziyasında şairlərə bədii yalanı ən çox öyrədən sənətkardır.

Füzulinin ən yaxın və səmimi dostu Əhdi Sivaslı onun haqqında belə demişdi: “Onun gözlərindəki düşüncə və xəyal diqqəti cəlb edirdi. Danışığı sakit, ancaq təsirli idi. Fikir və bənzətmələrinə heyran qalırdım… Aramızdakı dostluq möhkəm qalanı xatırladırdı”.

Füzulini oxuyanda isə görürük ki, o, tamamilə inandırıcı təsəvvür aşılamaq obrazı yaradıb. Füzulini kiminsə təsiri altına salmaq, həsrət ipinə bağlamaq mümkün deyil. Sənətdə ağılın və zövqün, dildə obrazların cilalanmasına təkan verən, Azərbaycan şeir dilinin müdrik və ibarəli poeziya dili pilləsinə yüksəlməsi üçün sözə qızıl bir sütun kimi arxalanan Füzuli, poetik-üslubi çalarları rəng tonları kimi hər tərəfə səpələyir:

*Məni candan usandırdı,*
*cəfadan yar usanmazmı?*
*Fələklər yandı ahimdən,*
*muradım şəmi yanmazmı?*
*Qamu bimarinə, canan,*
*dəvayi-dərd edər ehsan,*
*Neçin qılmaz mənə dərman,*
*məni bimar sanmazmı?*

Platonik şairin pik yaradıcılığı lirik qəzəlləridir. O, qəzəllərini sırf fəlsəfə və irfani düşüncələr üzərində qurub. Füzulinin sevgilisi Tanrıdır, yoxsa bir qadın? Füzulidən İslam qoxusu gəlsə də, bu şəriət qoxusu deyil, mənəvi qoxudur. Füzulinin xatırladığı, əslində, rəngli yuxular idi. Əsrlərə sürən bu axtarış misraların içinə necə də rahatlıqla sığına bilib. Füzuli özünün doğulduğu anı, hətta doğulduğu o an nə hissləri keçirdiyini xatırlayır. Və bunu biçarə Məcnunun dili ilə təqdim edir. Yeni doğulan uşaq danışa bilərmi?! Əlbəttə, yox! Füzuli isə Məcnunun dili ilə danışır. Daha doğrusu, əslində, nə hiss etdiyini xatırlayır.

Əsir düşmüş könüllər, daşa dəymiş arzular, puç olmuş ümidlər, əlbəttə ki, azad könül həsrətinin nə olduğunu yaxşı bilər. Bunu Məhəmməd yaxşı bilirdi. Bunu Hamlet yaxşı bilirdi. Bunu Raskolnikov yaxşı bilirdi. Bunu Jülyen Sorel yaxşı bilirdi. Bunu biçarə Fəxrəddin yaxşı bilirdi. Bunu “Azad bir quşdum”, – deyə gizlicə ürəyində oxuyan Cəfər Cabbarlı yaxşı bilirdi. Bunu “Ah! Mən gündən-günə bu gözəlləşən, işıqlı dünyadan necə əl çəkim?” – deyən, ömrünün iyirmi doqquzuncu baharında Dilbərinin gözlərindən gilə-gilə tökülən Müşfiq yaxşı bilirdi. Bunu öz şəxsi həyatında yaşayan Cavid əfəndi yaxşı bilirdi. Nəhayət, bunu azadlıq həsrətində yaşayan “Könlüm quşu qanad çalmaz, sənsiz bir an, Azərbaycan”, – deyən Məhəmmədhüseyn Şəhriyar yaxşı bilirdi. Onların hamısının azad könül həsrətilə burunlarının ucu göynədi. Məhz belə olduğuna görə azad könül həsrəti Füzulinin hər sətrində duyulmaqdadır.

Füzuli həm məhkumdur, həm hökmdar. O, Süleymanın ordusu ilə birlikdə Bağdada səfər edən türk şairləri Xəyali və Yəhya bəylə görüşmüş, “Leyli və Məcnun” əsərini də “Rum zərifləri” adlandırdığı bu sənətkarların xahişi ilə yazmışdır. Zamanın sərt sınaqları şairi sıxıb can-boğaza yığsa da, o, müasiri olan yüzlərlə həmkarının tutduğu yolla Osmanlı paytaxtına – boğazdakı o əfsanəvi şəhərə səfər etmədi. Ancaq bunların arxasından hər məqamda eşidilən bir hayqırış, hər yerdən boylanan bir eşq var: Vətən. O, həmişə öz çağının qürbətində üşüdü. Onun payına Tanrıdan zamanın qəm qafiləsinə sarvan olmağın haləsi düşdü:

*Edəməm tərk, Füzuli, səri-kuyin yarın,*
*Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!!!*

Saraydan iraqda – İraqda yaşasa da, Füzuli Sultan Süleyman dövrünün şairi kimi hər misrası söz xəzinəsinin bir incisi olan “Leyli və Məcnun”u yaratdı. Füzulidən öncə “Leyli və Məcnun” yazılı ədəbiyyatda dönə-dönə yazılmışdı. Amma Füzulinin məsnəvisində onları üstün edən hər reallıq var idi. Leyliylə Məcnunun vüsala çatmazlığına yaraşan yandırıcılıq. Leyliylə Qeysin məktəb illəri barəsində sevgilərini qarşılaşdıranda ehtimal etməyə bilmərsən ki, Füzuli, əslində, öz başına gələnləri təsvir edir. O, ruhu ehtiyacsız varlıq kimi göstərərək güzgüyə oxşadır. Güzgü həmişə göstərmək üçün yox, bəzən gizlətmək üçündür. Ruhun mahiyyətində görünməzlik var, o, görünəndə itir, yox olanda isə “aşkara çıxır”. Dərdlərdən dağ düzəldib onun zirvəsini fəth edən Füzuli qəmi, iztirabı, kədəri alovlu sözləri ilə sönmək bilməyən tonqalda alışdırıb yandırdı. Ustadın muma döndərib şəkildən-şəklə saldığı sözlərinin hər biri nələr çəkdiyini yaza bilsəydi gileylərdən doğmuş “Şikayətnamə”lər kitabxanalara sığmazdı. İnsanlığın şairi, məhəbbətin şiddətindən haray salıb fəryad etdiyi şeirlərin başdan-başa qəm şırımlarında cadar-cadardır:

*Füzuli dərd əlindən dağa çıxdı,*
*Dedilər: “Bəxtəvər yaylağa çıxdı”.*

Divan ədəbiyyatına, həmçinin rus və Osmanlı ədəbiyyatının təcrübəsinə bələd olan Rəşid bəy Füzulini ədəbiyyatımızın atası hesab edirdi: Axı Füzuli poeziyası başdan-başa musiqidir. Şairin lirikası, əruzun müvafiq qəliblərinə qovuşaraq heyrətamiz təravət və məlahətlə səslənir. Füzuli yaratdığı qəzəllərə sənət möhürü vuraraq onu əlçatmaz zirvəyə qaldırmış, onun qəlbində bu məhəbbət qığılcımlarını başda Cabbar Qaryağdıoğlu olmaqla səsi-ünü dağı-daşı yandıran Qarabağ xanəndələri oyatmışlar. Füzuli yaradıcılığı nəğməkarlarımız üçün də tükənməz söz xəzinəsi olmuşdur. Klassik xanəndələrimiz Füzulinin şeirlərini muğam və təsniflərdə sevə-sevə, ilhamla ifa etmişlər. Vokal sənətimizin fəxri Bülbül Füzuli şeirinin pərəstişkarı, bilicisi və məharətli ifaçısı idi. Xan Şuşinski, Ağabala Abdullayev, Hacıbaba Hüseynov, Sara Qədimova, Rübabə Muradova, Əbülfət Əliyev, Arif Babayev, Zeynəb Xanlarova, Mələkxanım Əyyubova, Qəndab Quliyeva, Səkinə İsmayılova, Mənsum İbrahimov və başqaları ustad Füzulinin şeirlərindən muğamlarda məharətlə istifadə etmişlər. Əmani, Qövsi, Saib kimi söz ustadları onun məktəbindən bəhrələnib, Vaqif, Vidadi irsinin başlıca qida mənbəsi olub. Əhsəni, Nəşati, Agahi Zövqü kimi özbək, Məxtimqulu, Kəminə, Nur Məhəmməd kimi türkmən, Şeyx Qalib, Baqi, Nəfi, Nədim kimi türk şairləri Füzuli ədəbi məktəbinin davamçıları olmuş, bu irsə böyük məhəbbətlə yanaşmışlar.

1959-cu ildə Füzulinin adı şəhərə və rayona verilmiş, Bakıda abidəsi ucaldılmışdır. Elmlər Akademiyasının Əlyazmalar İnstitutu şairin adını daşıyır. Haqqında 3 sənədli film çəkilmiş, “Füzuli kantatası” (C.Cahangirov), “Füzuli” simfonik poeması (A.Məlikov) və bir çox qəzəllərinə musiqilər, romanslar bəstələnmişdir. Ölməz dahinin abidəsi 1970-ci ildə Füzuli şəhərinin mərkəzində ucaldılıb. İşğal dövründə heykəl parçalanaraq hissələrə ayrılıb, tamamilə yararsız hala salınıb. Heykəlin yerləşdiyi parkın ərazisi erməni vandalları tərəfindən cəngəlliyə çevrilib. 27 illik işğaldan sonra 2020-ci ildə ərazi bütövlüyümüz təmin olunarkən Füzuli rayonu da müzəffər qələbədən öz nəsibini aldı. Artıq Füzuli rayonu kimi ustadın da ruhu azaddır. İndi o, sevgidən yoğrulmuş qəzəlləri ilə tapdalanmış dağı, daşı, torpağı sağaldır.

Şairin ölməz əsərləri əbədi olaraq insanlığın xidmətindədir. Ləyaqətsiz bir mühitdə ləyaqət və şərəfini qorumağı bacaran, tükü tükdən seçən, yer üzündə ülvi sevgini, sədaqəti, gözəllik duyğusunu, azadlıq və əməksevərliyi, səbir və təmkini yaxşılığın və dostluğun simvoluna çevrilən zərif ruhlu şair daim ürəklərə məhəbbət və xeyirxahlıq körpüsü salmaqdadır. Bu səbəbdəndir ki, ədəbiyyatımızın eşq yolu Füzulidən keçir, Füzulidə bitir. Onun eşqi dünyəvilikdən ilahi eşqə yüksələn, özünü bu yolda unudaraq Allaha qovuşduran eşq idi. Çünki Füzuli eşqdən doğulmuş, eşqlə bütünləşmiş və eşqə qovuşmaq istəyi ilə yanıb tutuşmuşdu. O bu yolda çəkdiyi əziyyətdən usanmır, peşman olmur, əksinə, əziyyəti sevgi göstəricisi hesab edir, əziyyəti hiss etdiyi yerlə bütünləşirdi. Füzuli eşq yolunda yandıqca bütünləşir, Allaha qovuşur, məhəbbət yolunda çəkdiyi əziyyətdən bezmirdi.

1556-cı ildə Bağdadı ağuşuna alan dəhşətli taunun qurbanlarından biri də Füzuli oldu. Hər dahi kimi, gerçək ömrü bitən Füzulinin də daha heç bir xəstəlikdən qorxmayan, heç bir təqvim ölçüsünə sığmayan əsl ömrü başlandı. Ulu babası Dədə Qorqudun son ucu ölümlü dünyanı tərk edəndən sonra gələn ağrısız, acısız ömrü kimi. Ömür sürdüyü müqəddəs torpaqlarda, adaşı olduğu Səma Elçisinin nəvəsinin ayaqları altında uyumaqla ürəklərə köçdü.

Nə qədər ki dünya və məhəbbət var, Füzuli də olacaq. Türk xalqları və türk dili durduqca yaşayacaq, dilimizin, mənəviyyatımızın əbədi və canlı heykəlinə çevriləcək. Füzuli duyğularının hərarəti zaman keçdikcə daha gur yanacaq. Bu ocağın odunda yanan, bu səadətin suyundan içən hər bir adam canlanacaq. Həyatın mənası haqqında sonsuz düşüncələrə, xəyallara dalaraq bu dünyaya, bu həyata gəldiyinə sevinəcək.

✍ **Fariz ƏHMƏDOV**





# Vənənd Ordubadın incisi

*Keçmişlə müasirliyin vəhdət təşkil etdiyi çinarlı kənd*

Başı buludlara dəyən çinarlar qarşılayır bizi Vənənd kəndində. Əzəməti, məğrur duruşu, illərlə gördüyü hadisələri öz kökündə sıxıb saxlayan, bəzilərinə qucaq açan, gövdəsində ev olan bu çinarlar sanki qonağına nəsə demək istəyir. Dil açmadığını, aça bilməyəcəyini özü də bilir, lakin duruşunda gizlədiyi tarixin olduğu aşkardır. Bu çinarlar qədim kəndin tarixini özündə əks etdirir, kölgəsində neçə-neçə səyyahlar, alimlər dincəlib, bu çinarları kimlər vəsf etməyib ki...



*Ulu Öndərin əmanəti*

Yazın gəlişi bu yerlərə sanki bir ovqat gətirib – hər tərəfi bürümüş ilahi rənglərin ovqatını. İnsanları da fərqlidir bu kəndin, danışdıqları, söylədikləri sanki al-əlvan rəngə boyanmış bənzərsiz kilimə, keçəyə bənzəyir: adam sözlərini yarıda qoymaq istəmir onların – ayağını bu kilimə qoymağa qıymırsan. Çinarları vəsf edir





Zakir Həsənov. O, çinarlarla bağlı yaddaşında qalan ən xoş xatirəni bölüşür bizimlə. Deyir ki, bu çinarları qorumaq bizə Ümummilli Lider Heydər Əliyevin vəsiyyətidir: "Ulu Öndər 70-ci illərdə kəndimizə gələndə bu çinarları görüb. Üzərindən 20 il sonra – 90-cı illərin əvvəlində yenidən Vənəndə gəlmişdi. O zaman mən 9-cu sinifdə oxuyurdum. Gördüyünüz bu meydanda onu kəndin ağsaqqalları qarşıladı. Heydər Əliyev həmişəki kimi kostyumunu qoluna salmışdı. Və bir anda çinarları süzərək dedi: ***"Necə görmüşdümsə, elə də qalır. Bu çinarları bax belə də qoruyun, bu çinarları sizə əmanət edirəm".*** Bu sözlər indi də qulağımızdadır".

Bu çinarların xatirəsi vənəndlilər üçün əzizdir. Bir vaxtlar meydanda olan çinarın içərisində çayxana, hətta ət mağazası belə olub. Vüqar Məmmədov deyir ki, onun babasının məhz bu çinarın içərisində ət mağazası olub: "Tarixə şahidlik edib bu çinarlar. Bir zamanlar bu çinarın içərisində çayxana olub, stol qoyulub, insanlar burada oturub. Sonradan mağaza kimi fəaliyyət də göstərib. Babam isə bu çinarın içərisində ət satıb. Ümumiyyətlə, meydanda olan çinarların yaşının 600-700 il olduğu deyilir. Biz də bacardığımız qədər bunları qorumağa çalışırıq".

*Kəndə üz tutanların "lövbər" saldığı meydan*

Vənəndin "Kiçik meydan" adlanan ərazisi yayın ən isti günlərində belə öz təmiz və sərin havası ilə tanınır. Bu kəndə ilk tutanların da elə ilk "lövbər" saldığı yer məhz meydandır. Bura sanki keçmişlə müasir dövrün harmoniyasını özündə birləşdirir, yerli sakinlər müasirliklə ayaqlaşsalar da, tarixi ənənələrinə sadiqliklərini qoruyub saxlayırlar. Bu onların adətlərində özünü göstərir. Ələlxüsus, el adətləri heç vaxt unudulmur. Elə Vənəndə xas olan "çöpüdüm" yallısı kimi. Bu yurdda doğulub böyüyən, Ordubad üçün bir çox istedadlı müəllimlər yetişdirən Cəmil Məmmədov uşaqlıqda gördüyü ənənənin hələ də davam etdiyini deyir: "Bu meydan bayramlarda el adətləri ilə qonaqlarına, yerli sakinlərə qucaq açır. Vənənd kəndinin illərdir, davam edən bir ənənəsi var – çöpüdüm yallısı. Bayramlarda kəndin gəncləri meydana yığışar və iki dəstəyə ayrılarlar. Bir dəstə digərinə sual ünvanlayar, rəqibi isə onu tapmağa, ona uyğun cavab verməyə çalışar. Məsələn, bir dəstə at belində gənc bir oğlanı gətirərsə, rəqib dəstə ona cavab olaraq at belində gənc qız gətirməlidir, yəni bəy və gəlin. Bunlara cavab verməyən qrup məğlub olar və öncədən razılaşdırılmış cəzanı çəkər. Bu yallı həm də Vənənd kənd sakinlərinin nə qədər hazırcavab olduğunun göstəricisidir".

Bir ənənə də var ki, kənd ağsaqqalları, sakinləri onu hər zaman gənclərin adı ilə bağlayırlar. Yaqut Babayeva söhbət əsnasında deyir ki, bu, muxtar respublikanın bəzi kəndlərində var, lakin bizdə yayıldığı qədər yoxdur: "Kənddə, demək olar ki, hamı bir-birini tanıyır, hamı xeyirdə, şərdə iştirak edir, hər hansı kənd sakininin əziyyət çəkməsi hamını narahat edir. Odur ki, imkansız ailədə kiminsə xəstəsi olarsa, onun müalicəsini kəndin cavanları öz üzərinə götürürlər. Vənənddən kənarda yaşayan, orada işləyən gənclərimiz kəndə gələn kimi ilk işləri mağazalara getməkdir. Onlar kənd sakinlərinin ərzaq mağazasına olan bütün borclarını ödəyirlər. Ən əsası isə bunu kimin etdiyi deyilmir".

*Tarixi özündə gözü kimi bəsləyən kənd*

Vənənd nəinki Naxçıvanın, Azərbaycanın tarixi yaşayış məntəqələrindən biridir. Bu kəndin dar, uzun küçələrində yerləşən qədim evlərin divarlarına ənənələrlə "bəslənmiş", bunu qorumağa çalışmış insanların nəfəsi hopub sanki. Deyilənə görə, XVIII əsrin əvvəllərində Naxçıvan sancağının Azadciran nahiyəsinin tərkibində olan Vənənd Ordubadın ən gəlirli kəndi imiş. Demək olar ki, bir çox tanınmış səyyahlar, elm adamları bu kəndə gələrək Vənəndi öz əsərlərində tarixi-memarlıq abidələri ilə zəngin bir diyar kimi təsvir ediblər. Orta əsrlərə aid olan qədim abidələr içərisində hamam və məscidi xüsusilə vurğulamaq lazımdır. Əslində, Vənənddə yerləşən hamamın inşasında maraqlı hadisə baş verib. Belə ki, bu hamamın müəyyən hissəsinin (alt hissəsinin) tikilişi iki il çəkib və hamamı inşa edən usta tikintini belə qoyaraq gedib. Yerli sakinlər uzun axtarışdan sonra ustanı tapıblar. İkiillik fasilədən sonra usta gələrək işinə davam edib. Harada olduğunu soruşanda isə cavabı belə olub: "Hamamın yaxınlığında çeşmənin suyu olduğundan onun "oturması" üçün vaxt lazımdır. Bu həm də onu uzunömürlü edəcək". Maraqlısı odur ki, hamama birləşən bütün ərazinin "uzun-küçə" deyilən küçə vasitəsilə həm kəndin meydanına, həm də yaşayış məhəllələrinə çıxışı var. Bu da hamamın planlaşdırma strukturunun çox dəqiq olmasından xəbər verir. Son 60 ildir, hamam fəaliyyətini tam olaraq dayandırıb.

Bu kəndin digər özəlliyi həm də dinə bağlılığıdır. Kəndin ərazisində yerləşən 4 məscid öz tarixi ilə buranın nə qədər qədim, eyni zamanda dinə bağlı olduğunun göstəricisidir. Ən qədim məscid isə XIV əsrdə inşa edilib. Məscidlərin, demək olar ki, hamısı dördbucaqlı formada tikilib. Vənəndlilərin adı ilə bağlı olan bu kənddə meydanla yanaşı, divanxana da olub. Yerli sakinlər deyir ki, o zamanlar cəzası olanları divanxanaya yığıb orada cəzalandırırmışlar. Meydanda isə



orta əsrlərdə karvansaray və bazar olub ki, bu da yolun üzərində yerləşən kəndə gəlib-gedənlərin sayının artmasına zəmin yaradıb.

Vənənd həm də o dövrün ictimai ziddiyyətləri ilə barışmayan, din xadimlərinin, mollaların, varlı bəylərin, xanların, şəhər qazılarının mütəmadi olaraq tənqid olunduğu bir kənd olub. Odur ki, XIX əsrdə Azərbaycanın bir sıra yerlərində olduğu kimi, Vənənddə də "Əncüməni-şüəra" adlı ədəbi məclis yaradılıb. Bu məclisdə seçilən şairlərdən biri də realist məzmunlu əsərlər qələmə alan Qüdsi Vənəndi olub.

Azərbaycanın incisi Ordubad, Ordubadın incisi isə bu kənddir deyirlər. Kəndin tarixi adət-ənənələrində özünü əks etdirir, sanki Vənənd özünün harmoniya təşkil etdiyi, səs-küydən uzaq tarixinə, keçmişinə yenidən qayıdacaq kimi yola salır bizi. Tarixinə söykənən bir kəndin məhz "Ordubadın incisi" adını almasını da bundan gözəl izah etmək mümkün deyil.

Kəndin uzun və dar küçələrini seyr edə-edə yola düşürük. Geridə bizlərə Vənənd kəndinin bağışladığı zəngin, ən əsası tarixi təəssüratları qalır. Yenidən axşam düşəcək, səhər açılacaq... Vənənddə gündəlik həyatı bu minvalla davam edəcək. İllərdir, nağıl kimi ömür yaşayan Vənəndin çinarları yenə də təəssüratlarımızda "başı buludlara dəyən çinarlı kənd" kimi qalacaq...

**Ceyhun MƏMMƏDOV**



# Günəşdən əvvəl oyananlar







Onlar qədim diyarın zəhmətkeş insanlarıdır. Günəş dağların arxasından boylanmağa macal tapmamış ondan əvvəl oyanıb alın tərini torpağa qatıb zəhmətlə öz günlük ruzisini qazananlar. Atalar, analar, oğullar, qızlar, gəlinlər... Kimi səhər erkəndən istixanaya daxil olub tərəvəz toplayır, kimisi inəyi sağıb pendir tutur. Günə erkən başlayanların bir çoxu isə mal-heyvanın qış tədarükünü toplamaq üçün tarlalarda yonca biçib, ot bağlamalarını toplayıb taya qururlar. Onlar illik ruzilərini torpaqdan qazanıb, torpağı qızıl bilib ovuclayırlar. Günəş doğandan batana kimi gününün çoxunu çöldə, tarlada keçirirlər. İndi ilin elə vədəsidir ki, gün çıxandan hava qaralanadək kənd adamını evdə-eşikdə tapmaq çətin olar, hamı çöldə-bayırda öz işi ilə məşğuldur: kimisi həyətyanı sahəsində, pay torpaqlarında işləyir, başqa birisi əkib-becərdiyi sahələrin məhsulunu toplayır, digəri məhsulu yığılmış yerlərdə təkrar əkin keçirir. Torpaqla ünsiyyətdə olanların sevinci, fərəhi isə onunla bağlıdır ki, min bir zəhmətlə hasilə gətirilən məhsulla gün-güzəranını yaxşılaşdırırlar.



# Qızılgül çiçək açdı, bağça oldu, bar oldu

Gözəl bir yaz səhəri Günəş dağların arasından boylanmağa vaxt tapmamış biz də Günəşi salamlayan zəhmətkeş insanlarımızla birlikdə Şərur rayonundayıq. Bu gün haqqında danışacağım təsərrüfat sahibi Şərur rayon sakini Müqabil Zamanov illər öncə ailə təsərrüfatı qurub; 8 ildir ki, gülçülüklə məşğuldur. Onunla həmsöhbət olduğumuzda dedi ki, qızılgül mürəbbəsindən, gülabından söhbət düşəndə çoxumuzun ağlına ilk olaraq Ordubad rayonu gəlir. Uzun illərdən bəri formalaşan gülçülük bu rayonda inkişaf etdirilib və qızılgüldən müxtəlif məhsullar hazırlanıb. Bu sahəyə olan maraq illər keçdikcə digər rayonlarımızda da həmin sahənin inkişafına səbəb olub. Zəhmət adamı dedi ki, Şərur rayonunun torpaqlarının münbit olması işini daha da asanlaşdırıb. Rayonun Çərçiboğan kəndində yarım hektar sahədə qızılgül kolları əkdiyini deyən Müqabil Zamanov bildirir ki, əkdiyi qızılgüllər bir neçə ildir ki, məhsul verməkdədir. Əldə etdiyim məhsuldan gülab, araq, gül şirəsi hazırlayıram. Gül şirəsini içkilərə qatmaqla istifadə etmək olur. Bundan öncə bir çox meyvələrdən içki hazırladığını deyən müsahibim bildirdi ki, gülabı da xüsusi avadanlıqların köməyi ilə çəkir.

Öyrənirik ki, əvvəl qızılgül toplanılır, xüsusi mərhələdən keçirilir və süzülür. Bəzən gülab çəkənlər onun içinə müxtəlifrəngli və ətirli gülləri də qatır. Belə olan halda gülabın ətri yaxşı olmur. Gülab hər qızılgüldən çəkilmir. Bunun üçün qızılgülün kiçikləçəkli növündən istifadə olunur. Ocağın üstündəki qazanda, təxminən, 6 kiloqram qızılgül ləçəyi, 6 litr də su var. Bu, saatlarla qaynamalıdır. Su qaynadıqca buxar bu borunun divarlarına hopur, boruya yaş parça sarıyıb, üzərinə də tez-tez su çiləməlisən ki, buxar borunun soyuq divarlarına dəyib, gülab damlalarına çevrilib digər qaba yığılsın. Gülabın rəngi saf, ətri gözəl olmalıdır ki, onu istifadə edən də faydalana bilsin.

"Gülab həm də müqəddəs sayılır" söhbətimizə ailə təsərrüfatının üzvü Mehriban xanım da qoşulur. O vurğulayır ki, adətən, yas mərasimlərində gülabdan daha çox istifadə edilir. Halvanın şirəsini gülabla hazırlayırıq. Bəzən umacını da gülabla ovurlar. Yas mərasimindən çıxıb evinə gedən insanların əllərinə gülab tökmək adətimiz var. Bu o deməkdir ki, evinizə xeyir, gül ətri aparın. Hüzndə olduğu kimi toyda-bayramda da gülabın öz yeri var. Paxlavanın şirəsini gülabla hazırlayırıq. Qızılgülün mürəbbəsi və gülqəndi haqqında da söhbət açan müsahibim dedi:

– Qızılgül axşamın sərinində, ya da tezdən şeh gedəndən sonra yığılır. Hava yağışlı keçməsə, qızılgülün ləçəkləri daha gözəl olur. Gül toplandıqdan sonra təmizlənir. Soyuq su ilə yuyulub suyunu çəkməsi üçün sərin bir yerə qoyulur.



Təmizlədiyimiz gül cecəsini bir qazana yığıb yuyuruq sonra üzərinə yarım kiloqram gül cecəsinə beş stəkan qaynar su tökub dəmlənməyə qoyuruq. Hazırladığımız məhsul dəmlənir, həmin suyu başqa böyük bir qazana töküb qaynadırıq. Su qaynayandan sonra gül ləçəklərini içərisinə boşaldır, bir-iki buğum yenidən qaynadırıq. Həmin sudan yarım stəkan süzüb kənara qoyuruq. Sonra dəmləmə suda bir-iki buğum qaynayan gülün içərisinə beş kiloqram şəkər tozu əlavə edib qarışdırırıq. Hazır olana yaxın əvvəlcədən götürdüyümüz yarım stəkan gül suyunun içərisinə yarım çay qaşığı limon duzu əlavə edir və mürəbbənin içərisinə tökürük. Bu zaman mürəbbənin rəngi göz oxşayır. Bəzi xanımlar mürəbbənin rənginin yaxşı olması üçün boyaqdan istifadə edir. O da gül mürəbbəsinin dadını və rəngini xoşagəlməz hala sala bilir.





Əsl gül mürəbbəsini yeyəndən sonra onun qırmızı rəngi dodağa, dilə çıxmır, amma bu boyaq atılan mürəbbəni yeyəndə onun rəngi dodaqda, dildə qalır. Nənələrimiz deyərdi ki, 7 il qalan gül mürəbbəsi dərmana çevrilir. O, mədədə olan yaraları sağaldır, sonsuzluğun qarşısını alır. Gül mürəbbəsinə kərə yağı əlavə edib lavaşla yeyiləndə dadı damaqda qalar.

Gülqəndin hazırlanması ilə bağlı sualımı cavablandıran Mehriban xanım dedi:

– Təmizlənmiş gül hər kilosuna yarım kiloqram olmaqla şəkər tozu ilə ovulur, bankalara yığılır. Bir neçə il saxlanan gülqənd min dərdin dərmanıdır. Bundan başqa, yazda şəkərlə ovulan gülü qışda içərisinə azca su əlavə edib mürəbbə etmək də olar. Qızılgülün kompotunu da hazırlayan zəhmətkeş qadın bildirdi ki, bu çiçəyi qurudub qışa saxlayır.

Söhbətə qoşulan Müqabil bildirdi ki, qızılgüldən bəhs edən çoxlu yazılar oxuyub, onun faydalı cəhətlərindən istifadə edir, yaxınlarına da tövsiyələr verir: – Qızılgül yağı, qızılgül dəmləməsi qədim zamanlardan müalicəvi vasitə kimi tanınır və geniş istifadə olunur. Qədimdə sinir sistemi, ağciyər, ürək, böyrək, dəri xəstəlikləri zamanı qızılgüldən hazırlanmış tinkturalar, yağlar, dəmləmələrdən çox geniş istifadə olunurdu. Dahi İbn Sinanın elmi əsərlərində qızılgül haqqında məlumatlar, müalicəvi reseptlər var. Qızılgülün yağı çox güclü stimullaşdırıcı, bərpaedici, cavanlaşdırıcı təsirə malikdir. Ürək-damar sisteminə çox müsbət təsir edir – ürək əzələsini möhkəmləndirir, aterosklerozun qarşısını alır, damarlarda spazmaları azaldır, ürək ağrıları zamanı faydalıdır. Sinir sisteminə sakitləşdirici təsir edir, nevroz, stres, depressiya zamanı çox xeyirlidir. Mədə-bağırsaq sisteminə antiseptik təsir göstərir, mikrobları öldürür, immun sistemini möhkəmləndirir. Angina zamanı



müalicəvi təsir edir, başağrısını azaldır, orqanizmi cavanlaşdırır.

Qədim Naxçıvanın hər qarışında bitən digər bitkilər kimi, qızılgülün də faydaları çoxdur. Ümumiyyətlə isə yurdumuzun bütün nemətləri Tanrının bizə bəxş etdiyi ehsandır. Bu nemətləri artırıb çoxaltmaqla həm özümüzə, həm də yaxınlarımıza yaxşılıq etmiş oluruq.

**Ramiyə ƏKBƏROVA**

## İtmişdir

Culfa rayonu, Camaldın kənd sakini Ağayev Qasım Məhəmməd oğluna məxsus JN-251$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Hüseynov Kazım Hüseyn oğlunun adına olan 780$^{A}$, A-033249 nömrəli, 103013007948 reyestr nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qışlaqabbas kəndində yaşamış Əsədova Pakizə Həsən qızının adına olan JN-450$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Neymətova Sona Vəzir qızının adına olan JN-347$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kənd sakini Ələsgərov Ramil Abdulla oğlunun adına olan JN-1555$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Əliyev Həsən Məmmədhüseyn oğlunun adına olan JN-548$^{A}$ nömrəli torpağın mülkiyyət hüququna dair şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kəndində yaşamış Səfərova Fizzə Qurban qızının adına olan JN-262$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Dırnıs kənd sakini Məhərrəmov Xəlil İbrahim oğlunun adına olan JN-240$^{D}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Ramiyə Əkbərova
Dizayner: Lətif Zeynalov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 156